**Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə**

**Cenevrə Mərkəzi(DCAF)**

**Analitik yazı -N29**

# Gendərin Münaqişə Sonrası Aparılan Təhlükəsizlik Sektoru İslahatına İnteqrasiyası

*Meqan Bastik*

# SİLAHLI QÜVVƏLƏR ÜZƏRİNDƏ DEMOKRATİK NƏZARƏT ÜZRƏ CENERVƏ MƏRKƏZİ (DCAF)

## ANALİTİK YAZI- N29

## Gendərin Münaqişə Sonrası aparılan Təhlükəsizlik Sektoru İslahatına İnteqrasiyası

*Meqan Bastik*

**Müəllif Haqqında**

Meqan Bastik DCAF-ın Xüsusi Proqramlar Departamentində Gendər və Təhlükəsizlik üzrə tədqiqatçı kimi çalışır. O, əvvəllər Xüsusi Proqramlar üzrə Direktor Müavini vəzifəsində işlədiyi zaman DCAF daxilində Gendər və Təhlükəsizlik Sektoru İslahatı Proqramının yaradılmasında mühüm rol oynamışdır. O, "Silahlı Münaqişələrdə Seksual Zorakılıq- Qlobal İcmal və Təhlükəsizlik Sektoru üçün Çətinlikıər"  kitabının həm-müəllifidir və Gendər və TSİ-ı Vəsaiti layihəsinin koordinatoru olmuşdur. Bundan əlavə, Meqan  " İnsan Alverinə qarşı Təhlükəsizlik Sektoru Cavabları"  adlı DCAF-ın  21N-li Analitik Yazısının da həm -müəllifi olmuşdur.

Meqan DCAF-da işə başlamazdan əvvəl  Kvaker BMT Offisinin İnsan Hüquqları və Qaçqınlar Proqramında işləmişdir. Ondan öncə, Meqan bir müddət Beynəlxalq hümanitar hüquqşünas kimi Avstraliya Qırmızı Xaç Cəmiyyətində də işləmişdir. O  Yeni Cənub Vales ( New South Wales) Universitetindən Hüquq üzrə bakalavr və Kembric Universitetində isə heynəlxalq hüquq üzrə maqistr dərəcəsini almışdır.

Copyright © 2008 Silahlı Qüvvətodilər Üzərində Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi(DCAF)

ISBN 978-92-9222-084-6

DCAF analitik yazıları, Təhlükəsizlik Sektoru İdarəçiliyi məsələləri üzrə praktiki, strateji orientasiyalı fikirlər irəli sürür. Bu yazılar DCAF saytından www.dcaf.ch/publications sərbəst şəkildə əldə edilə bilər.. Çap olunmuş və cildli nüsxələri də satın alına bilər.

# İçindəkilər


1. **Giriş** ....................................................................7

**2. Gendər və Təhlükəsizlik sektoru İslahatı**..........................................9

2.1. Gendər və Təhlükəsizlik..........................................9

2.2. Gendər və münaqişə sonrası şəraitlərdə təhlükə(təhlükəsizlik)..........................................10

2.3. Gendərin təhlükəsizlik sektoru islahatına inteqrasiyasının prinsipləri..........................................12

**3. Gendər Problemi Uçotu və Qadınların Münaqişə -sonrası Təhlükəsizlik Sektoru İslahatında İştirakının Təşviqi** ..........................................13

3.1. Təhlükəsizlik Sektoru İslahatında Gendər Problemi Uçotu..........................................13

3.2. Qadınların Təhlükəsizlik Sektoru İslahatında İştirakı ilə bağlı problemlər..........................................14

3.3. Təhlükəsizlik Sektoru İslahatında qadın mülki cəmiyyət qruplarının yeri ..........................................16

3.4. Qadın parlament üzvləri Təhlükəsizlik Sektoru İslahatında ..........................................18

**4. Münaqişə- sonrası təhlükəsizlik şəraitlərində qadınların tam və bərabər iştirakının təmin edilməsi** ..........................................19

4.1. Qadınların təhlükəsizlik xidmətlərində iştirakına qarşı problemlər..........................................19

4.2. Münaqişə- sonrası ölkələrdəki təhlükəsizlik xidmətlərində qadınların Iştirakı..........................................21

**5. Gendər və münaqişə- sonrası spesifik təhlükəsizlik sektoru islahatı problemləri**..........................................23

5.1. Gendərin tərksilah, tərxisetmə və cəmiyyətə yenidən inteqrasiya işlərinə cəlb edilməsi..........................................23

5.2. Gendərin keçid ədliyyə və hüquq islahatlarına inteqrasiya edilməsi..........................................26

**6. Nəticələr**..........................................28

## Gendərin Münaqişə Sonrası aparılan Təhlükəsizlik Sektoru İslahatına İnteqrasiyası

*Meqan Bastik*

### 1. Giriş[1]

Təhlükəsizlik sektoru islahatının(TSİ) vacibliyi, münaqişə sonrası ölkələrlə aparılan beynəlxalq görüşlərdə getdikcə daha çox vurğulanır[2]. 2007-ci ilin Fevralında BMT Təhlükəsizlik Şurası xüsusilə vurğulamışdır ki, münaqişə sonrası ölkələrdə təhlükəsizlik sektorunun islahatı sülhün və sabitliyin möhkəmlənməsi, yoxsulluğun azalması,qanun aliliyi və yaxşı idarəçilik,legitim dövlət hakimiyyətinin genişləndirilməsi və ölkələrin münaqişəyə yuvarlanmasının qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır[3]. Milli hökümətlər də təhlükəsizlik sektorunun islahatına, öz hakimiyyətlərinin möhkəmləndirilməsi və keçmişin yaralarının sağalması yolunda həlledici vasitə kimi baxırlar.

Paralel olaraq, çox sayda hökümətlər və BMT və donor təşkilatları gendər bərabərliyinə nail olmaqdan ötrü, qadınların iştirakını və səylərini münaqişə sonrası quruculuğun mühüm elementləri kimi önə çəkirlər. 2000-ci ildə BMT Təhlükəsizlik Şurası "Qadın, sülh və təhlükəsizlik"[4] adı altında 1325 saylı Qətnamə qəbul etdi və münaqişə sonrası ölkələrdə gendər bərabərliyi,sülh quruculuğu və təhlükəsizliyin bir-birindən qarşılıqlı olaraq asılı olduğunu

---

[1] Bu analitik yazı SİPRİ-nin 2008 İllik Kitabçasında dərc edilən aşağıdakı fəsilin təkrar çapıdır: Silahlanma,Tərksilah və Beynəlxalq Təhlükəsizlik(Oksford Universiteti buraxılışı, Oksford,2008). Müəllif, Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutuna (SİPRİ) bu fəsilin təkrar çapına izn verdiyinə görə minnətdardır.Müəllif, Alison Bailisə (Alyson J.K. Bailes) və Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Genevrə Mərkəzində çalışan həmkarlara Alan Briden, Anja Ebnoter, Lavid Lau və Kristin Valasekə(AlanBryden, Anja Ebnöther, David Law and Kristin Valasek) bu fəsilin ilkin formasına etdikləri şərhlərə görə təşəkkür edir.

[2] "Təhlükəsizlik sektoru islahatı" termini 1998-ci ildən leksikona girmişdir və o zaman Britaniyanın Beynəlxalq İnkişaf üzrə Dövlət Katibi Klara Şortun( Clare Short)çıxışında ilk dəfə səslənmişdir: lakin bu terminin vahid qəbul edilmiş tərifi yoxdur. Bax Brzoska,M., İnkişaf üzrə Donorlar və Təhlükəsizlik sektoru İslahatı Konsepsiyası, Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Genevrə Mərkəzi (DCAF) Analitik Yazı N4 (DCAf, Geneva,2003), səh.3. İqtisadi Əməkdaşlıq və və İnkişaf Təşkilatının (OECD) İnkişaf Yardım Komitəsi(DAC)" təhlükəsizlik sistemi islahatı "terminine üstünlük verir. OECD, Təhülkəsizlik Sistemi İslahatı və İdarəçiliyi, DAC Təlimatları və İsnad Seriyalar(OECD, Paris,2005). <http://www.oecd.org/dataoecd/8/39/31785288.pdf>, s. 20/ Daha çox qəbul edilən tərif kimi və bu fəsildə sonralar izah edildiyi kimi, bu termin islahat və bərpa proseslərini əhatə edir və həm normativ və həm də məhsuldarlıq məqsədləri ilə müdafiə,təhlükəsizlik,hüquq və ədalət üzrə bütün agentlikləri və dövlət təsisatlarını və bu sahələrdə öz vacib rolları və ya nüfuzları olan qeyri-dövlət subyektlərini əhatə edir. TSİ –ı üzrə baxın: (Hendrickson, D. and Karkoszka, A., 'The challenges of security sector reform', SIPRI Yearbook 2002: Armaments, Disarmament and International Security)Hendrikson D. və Karkozka, A Təhlükəsizlik sektoru islahatının problemləri, SİPRİ İllik Buraxılışı 2002: Silahlanma,Tərksilah və Beynəlxalq Təhlükəsizlik(Oksford Universiteti buraxılışı, Oksford,2002). Səh 175-201;( Caparini, M) Kaparini M., Təhlükəsizlik sektoru islahatı və NATO və AB genişlənməsi. SİPRİ İllik Buraxılışı 2003: Silahlanma,Tərksilah və Beynəlxalq Təhlükəsizlik(Oksford Universiteti buraxılışı, Oksford,2003) səh. 237-60. Və Kaparini M., Şərqi Balkanlarla təhlükəsizlik sektoru islahatı: SİPRİ İllik Buraxılışı 2004: Silahlanma,Tərksilah və Beynəlxalq Təhlükəsizlik(Oksford Universiteti buraxılışı, Oksford,2004) səh. 251-82.

[3] BMT Təhlükəsizlik Şurası , BMT Təhlükəsizlik Şurası prezidentinin Bəyənatı,BMT Sənədləri S/PRST/2007/3, 21 Fevral,2007. Burada isnad edilən BMT sənədləri bu saytdan əldə edilə bilər: http://documents.un.org/

[4] BMT Təhlükəsizlik Şurası Qətnaməsi 1325, 31 Oktyabr,2000

vurğuladı. Sülh quruculuğu işində və icma səviyyəsində asayişin saxlanmasında qadınların mühüm rola sahib olduğu bildirildi. Gendər bərabərsizliyi deyəndə, qadınların inkişafına qarşı törədilən maneələr və cəmiyyət daxilində geniş yayılmış, pis təsirləri ilə geniş miqyaslı təhlükə forması almış qadına qarşı zorakılıq başa düşülür. Həmçinin, kişilərin və oğlanların da həm zorakılıq qurbanı və həm də təhlükə mənbəyi kimi, xüsusi hallara baxılmasına dair tələblər də artır.

TSİ-ı dəyişim prosesidir: bəzən sürətli, bəzən yavaş-yavaş və bəzən də sabit artışla müşaiyət olunur. O, imkanlar və məsuliyyətlər gətirir-hər kəsi daha çox əhatə edən və daha az ayrımçı təhlükəsizlik sektoru təsisatları yaradır. Baxılmalı olan lazımi məsələlərdən biri də təhlükəsizlik xidmətləri daxilində etnik təmsilçilikdir: çoxmillətli dövlətdə,əhalinin təhlükəsizlik xidmətlərinə inanması üçün və bu xidmətlərin öz missiyalarını yerinə yetirmələri üçün, bu xidmətlər cəmiyyətin etnik tərkibini də əks etdirməlidir[5]. Eynilə, təhlükəsizlik xidmətlərinin təmsilçi, inanılan və effektiv olmaları üçün qadınları və kişiləri də öz sıralarına almalıdır. Qadınların təhlükəsizlik xidmətlərinə alınmasını və qadınların qərar vermə prosesində bərabər şəkildə iştirakını təşviq edən TSİ-ı strategiyaları məhsuldar və legitim təhlükəsizlik sektoru yaradıl-masına kömək edir. Daha geniş baxsaq, gendər məsələlərinin TSİ –ı proseslərinə inteqrasiya edilməsi, cəmiyyətin bütün təbəqələrinin irəli sürdüyü təhlükəsizlik tələblərinə və rollarına olan cavablılığı artırır, islahat prosesinə yerli sahiblənməni gücləndirir və təhlükəsizlik sektoru üzərində nəzarəti möhkəmlədir. Legitim və yerlərdə aparılan proses uğurlu və dayanıqlı TSİ-ı əldə edilməsi üçün həlledici şərtdir[6].

Bu fəsil, münaqişə sonrası TSİ-ı proseslərində gendər məsələlərini həll etmək üçün bir sıra halları və metodları araşdırır və Əfqanıstan, Kosovo, Liberiya, Peru, Ruanda, Syerra Leone və Timor –Leste-dən və Serbia və Cənubi Afrikadan potensial nümunələr gətirir. II Bölmə, TSİ-ı və gendər konsepsiyalarını və onların bir-biri ilə münasibətlərini müəyyənləşdirir. TSİ-da gendər problemi uçotunun əsaslandırılması və nümunələri və qadın və kişilərin, münaqişə sonrası ölkələrdən gətirilən nümunələrlə, tam olaraq TSİ –ı proseslərində bərabət iştirakına təşviq III Bölmədə müzakirə olunur. IV Bölmə qadınların münaqişə sonrası təhlükəsizlik xidmətlərində iştirakını təşviq edir. V Bölmə münaqişə sonrası TSİ-ı və TSİ-ı ilə bağlı fəaliyyətlərlə bağlı yaranan problemlərdən bəhs edir, o cümlədən, tərksilah, tərxis və cəmiyyətə yenidən inteqrasiya (DDR) proseslərində gendərin yerini, keçid ədliyyəsi və hüquq islahatı məsələlərini gözdən keçirir. VI Bölmə gendərin gələcək TSİ-ı proqramlaşdırma və qərarvermə proseslərinə inteqrasiyası hallarını yekunlaşdırır və əsas imkan və problemlərin konturlarını cızır.

---

[5] DCAF, Köməkçi materilları : “çoxmillətli silahlı qüvvələr” . Mart 2006 http://www.dcaf.ch/publications/kms/details.cfm?id=18416.

[6] 2006-cı ildə Avropa Birliyi Şurası TSİ-ı ilə bağlı AB-nin bütün siyasət və tədbirlərinə gendər ilə bağlı məsələlərin daxil edilməsini vurğulamışdır, AB Şurası, 2760 -cı Şura İclası, Ümumi Münasibətlər və Xarici Əlaqələr, Brussel, 13 Noyabr 2006, Mətbuat buraxılışı, http://europa.eu/rapid/pressReleasesAction.do?reference=PRES/06/302 . Eynilə, 2007-ci ildə TSİ-ı ilə bağlı apardığı müzakirələrdə BMT Təhlükəsizlik Şurası TSİ-ı ilə “gendər bərabərliyi kimi” başqa vacib sabitləşdirici və qurucu amillər arasında “qarşılıqlı əlaqənin” olduğunu qəbul etmişdir/ . BMT Təhlükəsizlik Şurası (qeyd2).

## 2. Gendər və Təhlükəsizlik Sektoru İslahatı

TSİ-nın geniş və dar çərçivədə tərifinə baxmayaraq,idarəçilik- əsaslı yanaşmada onun tərifi ilə bağlı konsensus vardır və bu yanaşmaya görə, təhlükəsizlik sektoru dövlətin və onun vətəndaşlarının təhlükəsizlyini təmin etməkdə məsul olan dövlətin bütün təsisatları və qurumlarını, o cümlədən, təhlükəsizlik xidmətləri verən və ya nəzarət funksiyaları yerinə yetirən ədliyyə və cəza təsisatlarını, qeyri-dövlət silahlı qruplarını və mülki cəmiyyət təşkilatlarını əhatə edir[7]. Diqqəti dövlətə yox, fərdlərə və icmalara yönəldərək və həm təhlükəsizlik təminatında və həm də nəzarət funksiyalarında mülki cəmiyyət təşkilatlarının vacib rolunu önə çəkərək, TSİ-ı özünü "insan təhlükəsizliyi" yanaşması ilə bir sıraya qoyur[8]. TSİ-a insan təhlükəsizliyi dəyərləri çərçivəsində baxılması, öz növbəsində TSİ-nın faktiki olaraq bütün əhalinin, o cümlədən, qadın, qız və oğlanların tələblərini təmin etməyə kömək edir.

Silahlı münaqişədən sonra,TSİ-ı sülh quruculuğunun önəmli hissəsinə çevrilmişdir: münaqişənin yenidən baş verməməsinin qarşısının alınması və ictimai təhlükəsizliyin gücləndirilməsi öz növbəsində quruculuq və inkişaf işləri üçün şəraitlər yaradır. Bu cür ölkələrdə gedən TSİ-ı proseslərinin xarakterləri,  münaqişə görməyən ölkələrdə az rast gəlinən və ya heç rastlanmayan xarakterlərdən fərqli olur[9]. Fiziki təhlükəsizlyin təmin edilməsi yəqin ki, ağırlıqlı olaraq prioritetləşəcək, ölkənin müəyyən hissələrində zorakılıq davam etsə də, TSİ –ı aparlması başlanacaq. Münaqişə sonrası TSİ-ı, beləliklə icma səviyyəli təhlükəsizlik təşəbbüsləri və hüquqi və qanunvericilik islahatları yerinə təhlükəsizlik sektorunun bacarıqlarının artırılmasına üstünlük verəcəkdir. Digər tərəfdən, təxirəsalınmaz TSİ-ı səyləri işlək hökümət qurulmazdan öncə, seçkinin nəticələri təsdiq edilməzdən öncə də davam etməlidir.

Münaqişə sonrası ölkələrdə,yerli təsisatların və donorların gündəliyinə xüsusi elementlər də daxil edilə bilər. Münaqişə zamanı törədilən cinayət işlərinə baxmaq üçün keçid dövrü ədliyyə mexanizmləri kimi yaradılan həqiqət və barış komissiyaları(TRC),milli barış və birliyi təmin etmək yolunda getdikcə artan zərurət kimi görünür. TSİ-ı, yerli maraqlı tərəflərin dayanıqlığı və kənar dəstək hesabına uzun müddətli prosess kimi uğur qazana bilər.

### 2.1.  "Gendər"  və Təhlükəsizlik

Gendər konsepsiyası 1970-ci illərdən başlayaraq inkişaf etmişdir və cəmiyyətin qadın və kişilərə ayırdığı rolları və münasibətləri,şəxsiyyət çalarlarını, davranışları,dəyərləri,nisbi  hakimiyyət və təsir dairəsini nəzərdə tutur. Ümumi sözlərlə,"gendər" dedikdə, qadın və kişilər arasında mövcud olan, bildiyimiz fərqliliklərə isnad edilməsi başa düşülür, "cins" dedikdə kişi və qadın arasındakı

---

[7]TSİ-ı ilə bağlı bax:  Hänggi, H., 'Təhlükəsizlik sektoru idarəçiliyinin mənası vardır', Red. H. Hänggi and T. H. Winkler, Challenges of Security Sector Governance (DCAF: Geneva, 2003), s. 17–18.

[8] İnsan təhlükəsizliyi konsepsiyası və TSİ-ı müzakirəsi üçün baxın:  Law, D, M., 'Human security and security sector reform: contrasts and commonalities', Sicherheit und Frieden, cild. 23, N. 1 (2005)

[9] Burada analizlər aşağıdakılara diqqəti cəlb edir: Law, D. M., The Post-Conflict Security Sector, DCAF Policy Paper no. 14 (DCAF: Geneva, 2006), <http://www.dcaf.ch/publications/kms/details.cfm?id=25252>, s. 2–3, və bunlar Əfqanıstan,Bosniya-Herseqovina,Haiti,Kosovo,Syerra Leone və Timor Leste-də baş verən hadisələrin araşdırlması əsasında  yazılmışdır

bioloji fərqə isnad edilir. Gendər fəqlilikləri və ya "gendərin rolu" dəyişməz deyil və ölkələr üzrə dəyişir və ölkə daxili də sinfindən, seksual orientasiyasından və yaşından asılı olaraq dəyişir. Gendər konsepsiyası, elmi ədəbiyyat və inkişaf proqramlarında qadın və kişilərin yaşadıqları xüsusi sosial şəraitlərdə onların fərqli rollarını və davranışlarını başa düşmək yolu kimi geniş mənada qəbul edilmişdir.Gendərin dayaq nöqtəsi kimi (kriteriya kimi)istifadə edilməsi onu göstərir ki, qadın və kişi cinsləri arasındakı fərqliliklər dəyişməz deyil və dəyişə bilər, məsələn, silahlı münaqişə zamanı və inkişafla bağlı proqramlara müdaxilə zamanı bu hallar baş verir.

TSİ-ı zamanı, gendərə verilən diqqət o faktı önə çəkir ki, qadın və kişilərin üzləşdikləri təhlükələrin sadəcə formaları fərqli deyil, qadın və kişilərin içərisində yaşadığı sosial proseslər və strukturlar fərqlidir. Çox sayda istisnalar olmasına baxmayaraq,zorlama hallarının əksər qurbanları qadınlar,silahlı münaqişənin qurbanları isə kişilərdir[10]. Bu cür zəif nöqtələr qadın və kişilərin həyatlarının dəyişməsindən qaynaqlanan çox sayda fərqliliklərdən doğur , o cümlədən, onların hakimiyyət və resurslara çıxışlarından doğur. Eynilə, qadın və kişilərin təhlükəsizlik təminatçıları kimi təhlükəsizlik qüvvələrində və təsisatlarında oynadığı rollar və ya zorakılığın törədiciləri kimi rolları sosial prosesləri əks etdirir və ona görə də dəyişim mövzusu ola bilir.

## 2.2 Gendər və Münaqişə Sonrası Şəraitlərdə Təhlükə(Təhlükəsizlik)

Münaqişə sonrası ölkələrdə qadın və uşaqlara qarşı zorakılıq hadisələri çox vaxt münaqişədən öncə olduğundan yüksək olur. Silahlı münaqişələrin qadınlara təsiri haqda BMT-nin müstəqil ekspertlərdən ibarət qrupunun müşahidələri göstərir ki, silahlı münaqişə zamanı qadınlara qarşı zorakılıq qəbul edilmiş norma olur[11]. Münaqişə sonrası dövrdə insanların silahlı olması, əsgərlərin münaqişə zamanı aldığı zədələr və işin,evin və əsas yaşayış tələbatlarının olmaması ucbatından seksual və ailə daxili zorakılıq halları davam edir və artır[12]. Yaşam imkanlarının olmaması və münaqişə sonrası dövrdə, əsasən, xaricdən kişi cinsinə aid işçilərin gəlməsi,

[10] Dünya Sağlıq Təşkilatının 52 ölkədə apardığı araşdırma göstərir ki, odlu silah işlədilməsi nəticəsində yaranan ölümlərin 90,4% -i kişilərin üstünə düşür. WHO, Dünya Sağlıq Təşkilatı,WHO-a isnad edilir. Small Arms and Global Health (WHO: Geneva, 2001, s. 3 Sorğu aparılan bu ölkələrin heç biri vətəndaş müharibəsinə cəlb olunmamışdır, bu nəticələr silahlı münaqişələrdə ölənlərə aid deyildir.

[11]Rehn, E. and Johnson Sirleaf, E., Women, War and Peace: The Independent Experts' Assessment on the Impact of Armed Conflict on Women and Women's Role in Peace-Building (Progress of the World's Women 2002, vol. 1) (UN Development Fund for Women: New York, 2002), s. 13. Münaqişə zamanı qadınlara qarşı zorakılıqla bağlı geniş ədəbiyyat vardır. Bax: Bastick, M., Grimm, K. and Kunz, R., Sexual Violence in Armed Conflict: Global Overview and Implications for the Security Sector (DCAF: Geneva, 2007); UN Office for the Coordination of Humanitarian Affairs (OCHA) and Integrated Regional Information Networks (IRIN), The Shame of War: Sexual Violence against Women and Girls in Conflict (OCHA/IRIN: Nairobi, Mar. 2007); and Ward, J., If Not Now, When? Qaçqınlar,yaşayış yerlərini müvəqqəti dəyişənlər arasında və münaqişə sonrası ölkələrdə gendər -əsaslı zorakılığın aradan qaldırılması: Qlobal İcmal (Reproductive Health for Refugees Consortium: New York, 2002). Silahlı münaqişə zamanı kişilərə və oğlanlara qarşı gendər -əsaslı zorakılıqla bağlı analizlər üçün bax: Sivakumaran, S., 'Sexual violence against men in armed conflict', European Journal of International Law, vol. 18, no. 2 (2007); and Carpenter, C. R., 'Recognizing gender-based violence against civilian men and boys in conflict situations', Security Dialogue, vol. 37, no. 1 (2006), s. 83–103

[12] Rehn and Johnson Sirleaf (qeyd 10), s. 16.

xüsusilə qadın  və qızların seksual istismara məruz qalması və qadın alverinə yol açmasına imkan verir[13].

Təkcə qadınlar,qızlar və oğlanlar fərqli təhlükələrlə üzləşmir, münaqişə sonrası ölkələrdə dövlət təhlükəsizliyinə yönələn əsas problemlər gendər ilə əlaqəli olur və ona görə də gendər tələblərinə cavab verən TSİ –ı tələb olunur.  Kişilik, gənclik və silah işlədilməsi məsələləri arasındakı əlaqələr də çox yaxşı sənədləşdirilmişdir[14]. Yüngül  Silahlar  üzrə aparılan Sorğular,  gendər ideologiyalarına-xüsusilə, kişiliyi gücə bağlayan ideologiyalara, hansı səbəbdən zorakılığı kişilik və hörmət əldə edilməsi üçün cəlbedici vasitə kimi görən marqinallaşmış gənclərin baxışına mühüm açıqlıq gətirir[15]. Lakin, TSİ-ı işləri gənc oğlanları təhlükəsizlik riski kimi və qadın və qızları isə başlıca olaraq qurban kimi görməməlidir. Bu cür yanaşma olursa, o zaman çox sayda zorakı olmayan insanların qulaqardına vurulması riski yaranır və qadınların da təhlükəsizlik təminatçıları olma perspektivlərini sarsıdır[16].  Nordik Döyüşqrupu Komandiri ,Briqada Generalı Karl Engelbrekston təhlükəsizlik təminatı üçün yaradılan silahlı qüvvələrdə qadınların gündəlik həyatının rolunu xüsusi qeyd etmişdir: "Hər hansı zonada sabitlik yaradılan zaman qadının rolunu başa düşmək vacibdir...Əgər qadınlar evin gündəlik təminatçılarıdırsa və öz ailələrinə yemək,su təmin edirlərsə, qadınların işlədiyi yerlərdə patrul xidməti aparılması ümumi təhlükəsizliyi artırır və onlara işlərini davam etməyə imkan yaradır. Bu taktiki qiymətləndirmədir.... Gündəlik həyatın davam etməsi üçün şəraitin yaradılması təhlükəsizlik baxımından həyati məna daşıyır"[17].

Gendər –həssas TSİ –ı yanaşması, qadın, kişi, oğlan və qızların zəif nöqtələri ilə bağlı nümunələrlə məşğul olmalı və həmçinin,onlara əlçatan resurslar və onların öz təhlükəsizlikləri üçün istifadə etdikləri strategiyalar  ilə də məşğul olmalıdır. Bu cür anlaşma üzərində qurulmuş TSİ –ı proqramları daha da  hədəfə yönəlmiş olacaq və beləliklə daha da effektiv və dayanıqlı olacaq. Digər tərəfdən, cəmiyyətin bütün hissələrinin ehtiyaclarına qulaq asan və cavablayan təhlükəsizlik təsisatları daha legitim və daha da hesabatlı qəbul edilir.

---

[13] Bax: M Sülhməramlı Əməliyyatlar Departamenti (DPKO), 'Human trafficking and United Nations peacekeeping',DPKO Policy Paper, Mar. 2004, <http://www.unmikonline.org/civpol/gender/doc/Human_trafficking.pdf>

[14] E.g. Dowdney, L., Children and Youth in Organised Armed Violence (COAV), 'Neither war nor peace: international comparisons of children and youth in organised armed violence', COAV Report, 2005, <http://www.coav.org.br/>. "Kişilik" termini göstərir ki,"kişi olmağın çox sayda sosial inşa edilmiş tərifləri vardır  və yerindən asılı olaraq zaman-zaman dəyişə bilər. Bu termin müəyyən hadisələr kontekstində kişinin özünü necə aparması və ya ondan gözlənilən hərəkətlərin necə olması qavrayışlarına aiddir". Qaçqın qadınlar, Uşaqlar və Kişilik üzrə Qadın Komissiyası: Gendər Bərabərliyinin Təşviqi üçün Kişilərin Cəlb olunması, Vəsait paketi (Qaçqın qadınlar və Uşaqlar  üzrə Qadın Komissiyası: New York, Sent. 2005), s. 5

[15] E.g. Dowdney, L., Children and Youth in Organised Armed Violence (COAV), 'Neither war nor peace: international comparisons of children and youth in organised armed violence', COAV Report, 2005, <http://www.coav.org. br/>. "Kişilik" termini göstərir ki,"kişi olmağın çox sayda sosial inşa edilmiş tərifləri vardır  və yerindən asılı olaraq zaman-zaman dəyişə bilər. Bu termin müəyyən hadisələr kontekstində kişinin özünü necə aparması və ya ondan gözlənilən hərəkətlərin necə olması qavrayışlarına aiddir".  Qaçqın qadınlar, Uşaqlar və Kişilik üzrə Qadın Komissiyası: Gendər Bərabərliyinin Təşviqi üçün Kişilərin Cəlb olunması, Vəsait paketi (Qaçqın qadınlar və Uşaqlar  üzrə Qadın Komissiyası: New York, Sent. 2005), s. 5

[16] Humanitar Dialoq Mərkəzi hesab edir ki, kişilərin müqavimətinə diqqət verilməlidir, yəni əksər kişilərə xas olan amillərə diqqət verilməlidir, hətta silahlı münaqişə yayılmış olan yerlərdə də kişilər silaha müraciət edib müqavimət göstərir. Widmer, M., Barker, G. and Buchanan, C., 'Hitting the target: men and guns', Revcon Policy Brief, June 2006, <http://www.hdcentre.org/files/MenandGuns.pdf>, s. 3.

[17] Engelbrektson, K, 1325 Qətnaməsi məhsuldarlığı artırır. Yaxşı və Pis nümunələr. BMT-nin 1325 Qətnaməsi ilə Beynəlxalq Missiyada işlərkən öyrənilən dərslər (Genderforce: Uppsala, 2007), s. 29

## 2.3 Təhlükəsizlik Sektoru İslahatına Gendər İnteqrasiyasının Prinsipləri

"Gendər problemi uçotu" bütöv bir yanaşma olub təmin etməyə çalışır ki, həm qadın və həm də kişilərə aid olan gendər məsələləri TSİ-ı prosesində hərtərəfli dərəcədə əks olunsun. 1997-ci ildə, BMT İqtisadi və Sosial Şurası( ECOSOC) gendər probleminin strategiya kimi sistemli şəkildə BMT sisteminin bütün sahələrində istifadə olunmasını,xüsusilə, BMT-nin inkişaf,yoxsulluğun azaldılması,insan hüquqları, humanitar yardım,büdcələmə,tərksilah,sülh və təhlükəsizlik və hüquqi və siyasi məsələlər üzrə sahələrində istifadə olunmasını qəbul etdi. Bu kontekstdə ECOSOC gendər problemi uçotuna *aşağıdakı kimi tərif verdi:*

> Qanunvericilik,proqram və ya strategiyalar daxil olmaqla, bütün səviyyələrdə və bütün sahələrdə istənilən planlaşdırılmış fəaliyyətlərdə qadın və kişilərin üzləşdiyi çətinlikləri qiymətləndirmə prosesi. Bu, qadın və kişilərin narahatlıqlarını və üzləşdiyi problemləri bütün siyasi,iqtisadi və sosial sahələr üzrə strategiya və proqramların qurulması, yerinə yetirilməsi, müşahidə edilməsi və qiymətləndirilməsi prosesinin tərkib hissəsinə çevirən strategiya olub, qadın və kişilərin bərabər faydalanmasını təmin edir və ayrı-seçkiliyi aradan qaldırır. Son məqsəd gendər bərabərliyinə nail olmaqdır[18].

O zamandan başlayaraq, gendər problemi uçotu başqa beynəlxalq və regional təşkilatlar və təsisatlar və ayrı-ayrı dövlətlər tərəfindən qəbul edilmişdir( ATƏT, Dünya Bankı,Şərqi Afrika Ölkələri İqtisadi Birliyi) və ayrı-ayrı dövlətlər də özlərinin xarici ölkələrdəki inkişaf- yönümlü proqramlarında və öz ölkələri daxilindəki proqramlarda tətbiq edilməsi üçün qəbul etmişlər. Gendər probleminin uçotu inkişaf etdikcə, daha yaxşı başa düşüldü ki, başqa amillər-məsələn, irq,etnik kimlik, seksual orientasiya və yaş istənilən cəmiyyətdə gendər ilə qarşılıqlı əlaqədə olur və gendər problemi uçotu öz effektivlivi üçün bütün bu amilləri hesaba alır. Qaçqınlar üzrə BMT Ali Komissarı,məsələn,"yaş, gendər və rəngarənglik problemini" inteqrasiyalı yanaşma kimi həyata keçirir.

TSI –ı üçün gendər problemi uçotu dedikdə, bütün TSİ-ı proqram və fəaliyyətləri prosesinin bütün mərhələlərində qadın, kişi, oğlan və qızlara etdiyi təsirin qiymətləndirilməsi başa düşülür. Məsələn, TSİ-ı qiymətləndirməsi aparılan zaman gendər problemi uçotu, qadın, kişi,oğlan və qızların üzləşdiyi bütün təhlükələrin ayırd edilməsi üçün suallar və metodlardan ibarət olur.

TSİ-ı proqramlarında qadın və kişilərin fərqli tələb və rollarını hesaba almağa imkan yaradan ikinci yanaşma, qadın və kişilərin bu proqramlarda iştirakını və təmsilçiliyini təmin edir. Qadınlar hələ də TSİ-ı proseslərində lazımi səviyyədə təmsil olunmadığından, təhlükəsizliklə məşğul olan dövlət təsisatlarında həm qadınların iştirakını və həm də təmsilçiliyinin artmasını təmin edən səylər edilməli və TSİ-ı proseslərində qadın mülki cəmiyyət təşkilatlarının səsi eşidilməlidir.

---

[18] BMT İqtisadi və Sosial Şurası, 'Agreed conclusions 1997/2', UN document A/52/3, 18 Sep. 1997, s. 3

## 3. Gendər Problemi Uçotu və Qadınların Münaqişə -sonrası Təhlükəsizlik Sektoru İslahatında İştirakının Təşviqi

### 3.1. Təhlükəsizlik Sektoru İslahatında Gendər Problemi Uçotu

Qadın və kişilərin xüsusi tələblərini TSİ-nın qəbul etməsi və onları cavablandırması üçün, TSİ-nı dizayn edənlər gendər məsələlərinə həssas yanaşmalı və gendər problemi uçotu məsələlərini də öz üzərinə götürmək iradəsində və səlahiyyətində olmalıdır[19]. Gendər üzrə fikir və təkliflər, təhlükəsizlik çatışmamazlıqları ilə bağlı analizlərdə,TSİ-ı strategiyaları daxilində və proqramların yerinə yetirilməsi prosesində istifadə edilməlidir.

TSİ-ı prosesində gendər problemi uçotu, qadın və kişilərin xüsusi qayğılarını müəyyənləşdirmək üçün geniş dairəli qadın və kişilərlə məsləhətləşmələr aparılmasını və onların TSİ-da iştirakını təmin edən mexanizmlər tələb edir. "Gendər məsələlərinin" tərkib hissələri və onları həll etmək yolları ancaq TSİ-dan yararlanan qadın və kişilər tərəfindən müəyyən edilə bilər, kənardan qəbul və ya import edilə bilməz.

**Cədvəl1. Təhlükəsizlik sektoru islahatı proqramları çərçivəsində aparılan gendər tədbirləri nümunələri**

| Daxildə aparılan tədbirlər | Xaricdə aparılan tədbirlər |
|---|---|
| ***Təhlükəsizlik təsisatları daxilində gendər problemləri uçotu*** | |
| • Gendər məlumatlılığı təlimi<br>• Seksual dələduzluq<br>• Davranış kodeksləri<br>• Gendər məsələlərini inteqrasiya etmək üçün resurslar, məsələn, kitabçalar | • Gendər -əsaslı zorakılığın qarşısını almaq və cavablamaq təşəbbüsləri<br>• İnsan alveri və zorakılıq qurbanları ilə soruşdurma aparanların təlimi və s.<br>• Təhlükəsizlik təsisatları üzərində nəza-rət aparan mülki cəmiyyət təşkilat-larının gendər məsələləri üzrə təlimi |
| ***Təhlükəsizlik təsisatlarında qadınların iştirakının təşviq edilməsi*** | |
| • Qadınların xidmətə alınması,işləməsi və irəliyə çəkilməsi tədbirlərinin artırılması yolları<br>• Ailələrə üstünlük verən insan resursları proqramları<br>• Qadınlardan ibarət təşkilatlara və qadın iclaslarına dəstək | • Məlumat toplanması üçün, zorakılıq qurbanlarının məhkəmələrə göndəril-məsi, təhlükəsizlik siyasətinin qurulması və s. üçün qadın təşkilatları ilə əmək-daşlıq<br>• Təhlükəsizlik sektoru üzərində nəzarət üzrə qadın təşkilatlarının təlimi |

[19] Bununla əlaqədar əsas vəsait M. Bastik və Valasek K. dərc etdikləri "Gendər və Təhlükəsizlik sektoru islahatı Vəsaiti "(DCAF, ATƏT/ İnsan Hüquqları və Demokratik Təsisatlar Ofisi və BMT Qadınların İnkişafı üzrə Beynəlxalq Tədqiqat və Təlim İnstitutu, Genevrə, 2008.

Mənbə. K. Valasek, "Təhlükəsizlik sektoru islahatı və gendər" , Redaktorlar, M. Bastik , "Gendər və Təhlükəsizlik sektoru islahatı Vəsaiti "(DCAF, ATƏT/ İnsan Hüquqları və Demokratik Təsisatlar Ofisi və BMT Qadınların İnkişafı üzrə Beynəlxalq Tədqiqat və Təlim İnstitutu, Genevrə, 2008.

Beləliklə, TSİ-ı proqramları həm qadınlar və həm də kişilər tərəfindən qaldırılan tələblərlə məşğul olmaqdır. Tələblər küçənin işıqlandırılmasının yaxşılaşdırılması təklifindən başlayıb icma polisi forumunun qurulması daxil, seksual zorakılığa uğramış qadın və ya kişini polisin necə sorğulaması ilə əlaqədar texniki təlimlərə qədər uzana bilər. Cədvəl I-də bu cür mümkün geniş nümunələr verilmişdir. TSİ-ı nəticələrinin monitorinqi və qiymətləndirməsi, gendər məsələlərinin necə həll edilməsinə və qadın və kişilərin TSİ –ı prosesində və islah olmuş təhlükəsizlik təsisatlarında iştirak dərəcəsinə yönəlməlidir.

### 3.2. Qadınların Təhlükəsizlik Sektoru İslahatında İştirakı ilə bağlı Problemlər

Iqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İnkişafa Yardım Komitəsi (DAC) təhlükəsizlik sektoru islahatına xas olan"əsas dəyərləri", "insan mərkəzli,yerlərdə sahiblənilmiş və demokratik normalar və insan hüquqları və qanun aliliyinə əsaslanan " dəyərlər kimi müəyyən etmişdir[20]. Bu dəyərlərin hər biri həm qadın və həm də kişilərin TSİ-ı proseslərində tam və bərabər şəkildə iştirak etməsinə əhəmiyyət verir. Əgər əhalinin yarısının tələbləri təmsil olunmursa, bu prosess insan mərkəzli sayıla bilməz və ya əhalinin yarısının səsi nəzərə alınmırsa, o proses demokratik sayıla bilməz. Lori Natan(Laurie Nathan) yerli sahiblənməyə "həm hörmət məsələsi və həm də praqmatik zərurət kimi" baxır və o,o zaman dərinləşir və güclənir ki, qadınlar ancaq sahibkar kimi bu işə cəlb olunsunlar[21]. OECD-nin TSİ-ı təlimatları bəyan edir ki, "qadınların iştirakının alt-səviyyələrdən yuxarıya doğru təmin edilməsi TSİ-ı prosesinin legitimliyini artırır və zərər çəkmiş əhali üçün onu daha demokratik və cavablayıcı edir.[22] İnsan hüquqları prinsipləri tələb edir ki, dövlət, qadınların ictimai proseslərdən kənarda qalmamasını, o cümlədən, təhlükəsizlik məsələləri üzrə qərar qəbul etmə prosesindən kənarda qalmamasını təmin etsin[23].

Lakin, münaqişə sonrası TSİ-ı proseslərinin planlaşdırılması, razılaşdırılması və yerinə yetrilməsi kişilər tərəfindən edilir. Bu donorların işçilərinə və TSİ-nı dəstəkləyən təsisatlara da aiddir və həm də TSİ-ı prosesləri gedən ölkələrdə bu işlərə cəlb olunan fərdlərlə də bağlı doğrudur[24]. Bunun səbəbi ölkədən –ölkəyə dəyişsə də, bir sıra ümumi amillərin birlikdə hərəkət

---

[20] OSCD(qeyd10), Səh.22

[21] Nathan,L. Nə Sahiblənmə, Nə Öhdəlik: Təhlükəsizlik sektoru islahatında yerli sahiblənmə üçün təlimatlar(Birminhem Universiteti,May2007),səh.3

[22] OECD(qeyd1),s.42

[23] 185 ölkə tərəfindən imzalanmış Qadınlara qarşı ayrı-seçkiliyin Bütün Formalarının ləğv edilməsi haqqında Konvensiyanın 7-ci Maddəsi( imza üçün 18 Dekabr 1979-cu ildə başlamış və 3 sentyabr 1981-ci ildə qüvvəyə minmişdir), imza tərəflərindən qadınlara kişilərlə bərabər şərtlərlə hökümət siyasətinin formalaşdırılması və icra edilməsi prosesində iştirak hüququ tələb edir, dövlət vəzifəsi tutmaq və hökümətin bütün səviyyələrində dövlət funksiyaları yerinə yetrirmək hüququ tələb edir. BMT-nin 1325 Qətnaməsi "münaqişələrin qarşısının alınması və həll edilməsi və sülh quruculuğu yolunda qadınların mühüm rolunu bir daha təsdiq edir" və "bütün ölkə, bölgə və beynəlxalq təsisatlarında və mexanizmlərdə münaqişələrin qarşısının alınması,idarə edilməsi və həlli ilə bağlı bütün qərar qəbul etmə səviyyələrində qadınların təmsilçiliyinin artırılmasını dövlətlərdən" tələb edir.

[24] TSİ –ı proqramlaşdırması üzrə beynəlxalq və başqa təşkilatlarda çalışanların əksəriyyətinin kişi olduğu gendər ətrafında gedən müzakirələr zamanı çox zaman həm qadın və həm də kişilər tərəfindən qeyd edilir. Bu fəsil TSİ –ı aparan ölkələrin qadınlarının iştirakına yönəlmişdir. Lakin, qadınların TSİ-ı təşkilatlarında iştirakının analizi, onunla bağlı maneələr və onun proqramlaşdırmanın gendər cavablılığına necə təsir etməsi maraq kəsb edir.

etməsi qadınların az-az hallarda qərar vermə nöqtəsində iştirakını təmin edir. Birincisi, qadınların hökümətin təhlükəsizlik agentliklərində nisbətən az təmsil olunmasındadır, xüsusilə də istər TSİ-ı üçün vəsait ayıran ölkələrdə,istərsə də TSİ –ı aparan ölkələrdə onların yüksək vəzifələrdə az təmsil olunmasıdır.

2008-ci ilin Yanvarına görə,qadınlar 185 ölkədə 1022 nazir vəzifəsini tutmuşlar. Onlardan ancaq altısı müdafiə və veteran işləri üzrə nazir olmuşdur[25]. Münaqişədən çıxan az –az ölkələrdə qadınlar təhlükəsizlik xidmətində yüksək mövqelər tutur. Baş verən münaqişənin dalınca, TSİ-ı, ağırlıqlı olaraq təhlükəsizlik sektoru bacarıqlarının qurulmasına doğru güc qazandığı zaman, islahata cəlb olunan daxili və ya xarici agentliklər tərəfindən və ya təhlükəsizlik xidmətlərinin özləri tərəfindən qadınların bu işlərə cəlb olunması ehtimalı az olur. Çox sayda münaqişə sonrası ölkələrdə qadınların parlamentdə sayının artdlğı halda, qadınlar az-az hallarda müdafiə və təhlükəsizlik komitələrinin sədri vəzifələrini tutur və ya təhlükəsizlik məsələləri ilə məşğul olmaq üçün yaradılmış xüsusi komissiyalarda iştirak edir[26]. Üçüncüsü, təəssüf ki,bəzən TSİ-ı elə planlaşdırılır və həyata keçirilir ki,orada mülki cəmiyyətin fikir və təklifləri kənarda qalır. Mülki cəmiyyət təşkilatlarının TSİ-ı prosesində səsi eşidilərsə, o zaman bu hal qadınların iştirakı və təmsilçiliyi üçün vasitə ola bilər.

Gendər –məlumatlı TSİ-ı sxemi, həm bütün sektorlardan olan qadınların bu işə cəlb olunması üçün tədbirlər hazırlayar və həm də qadınlar tərəfindən irəli sürülən təşəbbüslərə xoş yanaşar. TSİ-nın planlaşdırılması və həyata keçirilməsi, geniş iştirakı təşviq edən fəaliyyətləri əhatə etməlidir: ölkə daxili dialoq və məsləhətləşmələr,ictimai dinləmələr və mediada gedən müzakirələr və TSİ-ı planlaşdıran və icra edən təşkilatlara mülki cəmiyyət nümayəndələrinin daxil edilməsi bu qəbildəndir. Bu bəzən fokus qruplarının toplantılarını və başqa görüşləri qadın və kişilərə uyğun olan yerlərdə və dillərdə təşkil etmək səylərini tələb edə bilər və belə olmadığı təqdirdə onlar bu proseslərdən kənarda qala bilər. Qadınların iştirakını təmin edən xüsusi addımlara, qadınların təhlükəsizlik tələblərini cavablamağa yönələn iclaslar daxil ola bilər və qadın işləri naziriiyi və ya gendər nazirliyinin TSİ-ı üzrə qərar-qəbul etmə səviyyəsindəki görüşlərə rəsmi olaraq cəlb olunmasının təmini ola bilər və parlament –daxilində qadın məsələləri üzrə yaradılmış iclas qrupunun gendər və təhlükəsizlik məsələləri üzrə hazırladığı birgə platforma ola bilər.

Mülki cəmiyyət təşkilatlarının təhlükəsizlik sektoru üzərində nəzarətə cəlb olunması və parlamentarların öz nəzarət funksiyalarını yerinə yetirdiyi zaman gendər məsələlərinə həssas yanaşmaları üçün onlara imkanlar yaradılması, TSİ-ı proseslərində gendər məsələlərinin əsas mövzuya çevrilməsinin təmin edilməsinə kömək edə bilər[27]. Qadın parlamentarların TSİ-ı

---

[25] Parlamentlər-arası Birlik və Qadın İnkişafı üzrə BMT İdarəsi, ‘Women in politics: 2008’
(map poster), Feb. 2008, <http://www.ipu.org/pdf/publications/wmnmap08_en.pdf>. Milli təhlükəsizlik təsisatlarından nümunə götürsək: 2005-ci ildə Serbiyada qadınlar Daxili işlər nazirlilinin işçilərinin 19,68%-ni təşkil edirdi, lakin ancaq 15,81%-i səlahiyyətli zabit idi, 7,83%-i isə icra idarəetmə strukturunda çalışanlar idi. Novovic, S. and Petrovic, D., Women in Policing (Republic of Serbia Ministry of Interior Police College: Belgrade, Apr. 2006),s. 35–36.

[26] Qadınlar siyasətdə mövzusu ilə bağlı Parlamentlər-arası Birliyin 25 il ərzində apardığı sorğu göstərdi ki, qadınlar hələ də parlament müdafiə komitələrində təmsil olunmur və ya az sayda təmsil olunurlar və az-az hallarda komitə sədri və ya müavini və ya hesabatçı vəzifəsini tuturlar. 1997 ci ildə aparılmış sorğunun nəticələrinə görə,97 parlamentin komitələrində təmsil onunan qadınların statistikası göstərir ki, sadəcə müdafiə komitəsi sədrlərinin 35-i qadın olmuşdur. DCAF and IPU, Parliamentary Oversight of the Security Sector: Principles, Mechanisms and Practices (DCAF and IPU: Geneva, 2003), s. 47.

[27] Gendərin mülki cəmiyyət və parlamentin təhlükəsizlik sektoru üzərində nəzarət fəaliyyətinə inteqrasiya edilməsi üzrə ətraflı olaraq baxın: Bastik və Valasek (qeyd18) və DCAF və İPU(qeyd25)

prosesinə cəlb olunmasına imkan verilməsi üçün,əlbəttə qadınların özlərinin parlamentdə iştirakı güclənməlidir – belə olduğu halda TSİ-ı tələblərinin,ictimaiyyət üçün qərar vermə proseslərində və ümumilikdə siyasətin formalaşmasında qadınların iştirakının yaxşılaşdırılması ilə necə əl-ələ getdiyini nümayiş etdirər[28].

### 3.3. Təhlükəsizlik sektoru islahatında qadın mülki cəmiyyət qruplarının yeri

Təhlükəsizliyin təmin edilməsi istiqamətində öz icmaları daxilində qadınların oynadıqları rollar, TSİ-ı tərəfindən qəbul edilməli və dəstəklənməlidir. Qadın qrupları tez-tez zorakılıq qurbanlarını müxtəlif cür xidmətlər ilə, sığınacaq, hüquqi məsləhət və tibbi və psixoloji yardımlarla təmin edirlər. Onlar rəsmi təhlükəsizlik xidmətləri ilə əməkdaşlıq edərək, onlara yerli səviyyədə gözlənilən təhlükələrlə bağlı və təhlükəsizlik təşəbbüslərinin yerlərdə yerinə yetirilməsi ilə bağlı məlumatla da təmin edə bilirlər. Məsələn, Syerra Leonedə cəmiyyətə inteqrasiya edilmiş keçmiş döyüşçülərlə bağlı aparılmış araşdırmada sorğu edilənlərin 55%-i icma qadınlarının onların cəmiyyətə inteqrasiyasında mühüm rol oynadıqlarını bildirmişlər, 20%-i isə ənənəvi yerli liderlərin və 32 %-i isə beynəlxalq yardım işçilərinin köməyinin olduğunu bildirmişlər[29].

Qadın mülki cəmiyyət təşkilatları, münaqişə sonrası yerli sahiblənmənin təmin edilməsi üçün mühüm tərəfdaş ola bilər. Məsələn, 1989-2003 illəri ərzində Liberiyada gedən vətəndaş müharibəsi zamanı sülh üçün çalışan qadın qrupları, münaqişə sonrası quruculuq,barış və qadın hüquqlarının təşviqi üçün səy göstərmişlər. 2006-cı ilin Dekabrında Liberiya qadın mülki cəmiyyət qrupları, öz hökümətini və beynəlxalq birliyi qadın mülki cəmiyyət təşkilatlarını təhlükəsizlik sektoru islahatında, o cümlədən, ordu və polis haqqında ictimai rəyin dəyişdirilməsi istiqamətində,tərksilahın davam etdirilməsi və qadınların silahlı qüvvələrdə və polis sistemində işə alınmasına, rollarının artırılmasına çağırdılar[30]. 2007-ci ilin Fevralında, qadın hökümət rəsmilərinin və mülki cəmiyyət liderlərinin birgə nümayəndə heyəti Dünya Bankında Liberiya donorları qarşısında çıxış etdilər. Qadınların fikir və təklifləri təhlükəsizlik,iqtisadi inkişaf, səhiyyə və təhsilin bir-biri ilə qarşılıqlı bağlılığını üzə çıxardı. Onlar israr etdilər ki,Liberiyada gendər -əsaslı zorakılıq hallarının artdığı və yerli əhali arasında təhlükəsizliyin təmin edilmədiyi bir dönəmdə, insan təhlükəsizliyi daha geniş mülahizələrlə TSİ-ı prosesinə daxil edilsin. Onlar, TSİ-ı prosesinin gendər məsələlərində effektiv və cavablayıcı olması üçün konkret tövsiyələr irəli sürdülər, o cümlədən: (a), cəza hüququ qadın,kişi və gənc məhbusların tələblərini nəzərə

---

[28] Qadınların parlamentdə iştirakı ilə bağlı strategiyalar üçün baxın: <http://www.
ipu.org/>; International IDEA, <http://www.idea.int/>; and the International Knowledge Network of Women in Politics, <http://www.iknowpolitics.org/>

[29] Afrika üçün Avropa Parlamentarları Assosiasiyası –na isnad edilmişdir(AWEPA). Münaqişələrin İdarə edilməsi və Sülh Quruculuğunda Parlamentlərin Rolu, Metodik Yazılar SeriyasıN13.l (AWEPA: Amsterdam, Sep. 2006), <http://www.
awepa.org/index.php?option=com_content&task=view&id=338>, s. 70.

[30] Hunt Alternatives Fund, Əhatəli Təhlükəsizlik Təşəbbüsü. "Əhatəli Təhlükəsizlik Təşəbbüsü mülki cəmiyyət məsləhətləşmələri: qadın mülki cəmiyyət təşkilatlarının Liberiya Hököməti və Beynəlxalq birlik üçün hazırladığı tövsiyələr" / Washington, DC, 12 Dec. 2006, http://www.huntalternatives.org/download/333_microsoft_word_
12_12_06_civil_society_recommendations_for_ejs.pdf>.

alsın;(b) təhlükəsizlik qüvvələri öz təlimlərinə travma üzrə məsləhətləri də daxil etsin;(c) anti-korrupsiya tədbirlərinə cinsi əlaqə tələbləri və həmçinin, pul ödəməklə cinsi əlaqə tələbləri də daxil edilsin.

Onlar israr etdilər ki, milli təhlükəsizlik siyasəti və müdafiə strategiyası hazırlanan zaman qadınlar tam tərəfdaş kimi çıxış etsinlər və təklif etdilər ki,TSİ-na məsul olan İdarəçilik İslahatı Komissiyası öz planlaşdırma işlərinə gendər üzrə ekspertləri də daxil etsin. Onlar vurğuladılar ki,"təhlükəsizlk risklərinin idarə edilməsində" qadınların rolu qəbul edilməli və öz təcrübələrinə uyğun olaraq, məsələn, yerli əhali arasında barışın möhkəmləndirilməsində, yerli əhali ilə hökümət arasında əlaqə yaradılmasında və gənclərlə iş üzrə proseslərə, daha geniş formada cəlb olunsunlar"[31].

Liberiya qadın mülki cəmiyyətinin TSİ-ı proseslərinə tam giriş əldə etmək tələbi üçün sərf etdiyi enerji və diqqət, müəyyən nəticələrə və əlamətlərə gətirərək göstərdi ki, Liberiya öz təhlükəsizlik sektorunu islahat etdiyi zaman qadınların təhlükəsizlik tələblərinə cavab verir. Liberiya Milli Polisi nəzdində Qadın və Uşaq Müdafiə Sektoru quruldu və orada gendər-əsaslı zorakılığın seksual və başqa formaları üzrə məşğul olmaq və idarə etmək üçün təlim keçmiş zabitlər işə alındı[32]. Liberiya həbsxanalarında Qadın və Uşaq şöbələri yaradıldı və həbsxana işçiləri gendər və seksual zorakılıq məsələləri üzrə təlimlər keçirlər[33].

Liberiya, qadınların silahlı qüvvələrdə və polisdə işləməsi üçün 20%-lik kvota müəyyən etdi. Qadınların Liberiya polisində işləməsinə təkan Hindistandan gəldi. 2007-ci ilin Yanvarında, BMT-nin 103 Hindistanlı qadından təşkil olunan ilk qadın sülh məramlı polis kontingenti Liberiyaya göndərildi. Onlar Liberiyada yerləşdirkdən bir ay sonra, polis olmaq üçün müraciət edən Liberiyalı qadınların sayı adi halda olduğundan 3 dəfə artdı[34].

Qadınların hökümət rəsmiləri ilə birgə işlədiyi Liberiya qadın hərəkatı, hökümət və siyasi partiyalar və yerli səviyyələr arasında gendər üzrə vertikal əməkdaşlığın necə birgə platforma ola biləcəyini nümayiş etdirdi; və qadın şəbəkələrinin yerli təhlükəsizlik və ədalətlə bağlı qayğıları və TSİ-ı arasındakı əlaqələri necə işə sala bildiyini nümayiş etdirdi. Bu cür şəbəkələr, qadın qruplarına yerli icmalar ilə TSİ-ı quran siyasi qərar vericilər və praktiklər arasında dialoq təşkil etməyə imkan verir və TSİ-ı proseslərinin əhalinin öz tələblərinə,inkişaf dinamikasına və resurslarına cavab verməsinə kömək edir. Liberiyanın yeni polis xidmətlərində qadınların iştirakı onlara ictimai inam və legitimlik qazandırır.

---

[31] Hunt Alternatives Fund, Əhatəli Təhlükəsizlik Təşəbbüsü. "Yenidənqurmanın prioritetləri: Liberiya Yoxsulluğu Azaltma Keçid Strategiyasına fikir və təkliflər"(IPRS) Washington, DC, Feb. 2007, http://www.huntalternatives.org/download/380_microsoft_word_preparatory_conference_iprs_recommendations_final.pdf

[32] BMT Uşaq Fondu (UNICEF), 'New women and children protection section for Liberia's police', Press release, 1 Sep. 2005, <http://www.unicef.org/media/media_28159.html>

[33] BMT-nin Liberiyada Missiyası(UNMIL), 'Outcomes of gender mainstreaming by the Office of the Gender Adviser: UNMIL, 2004–2006', <http://www.unmil.org/documents/OGA_Achievement_2004_2006.pdf>

[34] Guéhenno, J. M., BMT TŞ –a yönəlmiş bəyənat , Qadın, Sülh və Təhlükəsizlik üzrə Debatlar, UN document S/PV.5766, 23 Oct. 2007, p. 5.

Qadın təşkilatlarının 1996-1998 Cənubi Afrika Hərbi İcmalında iştirakı, münaqişədən çıxan ölkələrdə mülki cəmiyyət təşkilatlarının TSİ-ı prosesində iştirakını təşviq edən model kimi istifadə oluna bilər[35]. Qadın parlamentarlarının israrı ilə,Parlamentin Müdafiə Məsələləri üzrə Birgə Daimi Komitəsi başqa işlərlə bərabər,hərbi icmal prosesinin bir hissəsi kimi milli məsləhətləşmələr keçirməyə çağırdı. İctimai iştirakı təmin etmək üçün cürbəcür tədbirlər görüldü, o cümlədən, dini və icma liderlərinin, qeyri-hökümət təşkilatları fəallarının və qadın təşkilatlarının nümayəndələrinin bölgəsəl görüşlərə və məşğələlərə gedib-gəlməsi üçün hərbi təyyarədən və avtobuslardan istifadə edildi. Yerli qadın təşkilatları,əvvəllər qulaqardına vurulan təhlükəsizlik məsələlərinə,məsələn,torpaqları hərbi məqsədlər üçün zəbt olunan və mülkiyyətdən məhrum edilmiş icmaların ağır vəziyyətinə və hərbçilər tərəfindən seksual zorakılığa məruz qalmış qadınlara diqqəti cəlb etmişlər. Bu cür iştirakçı hərbi icmal Cənubi Afrikada hərbi məsələlər ətrafında milli konsensus qurmağa və yeni təhlükəsizlik strukturlarının legitimliyinin formalaşmasına kömək etdi. Hərbi icmalın irqindən, cinsindən və ya seksual orientasiyasından asılı olmayaraq  ayrı-seçkilik etmədən konstitusiya prinsiplərinə sadiq qalan öhdəliklərinə uyğun olaraq, Cənubi Afrika Milli Hərbi Qüvvələri gendər bərabərliyini təşviq edən bir sıra təşəbbüslərlə çıxış etdi.

### 3.4. Qadın Parlament Üzvlərinin Təhlükəsizlik Sektoru İslahatında yeri

Qadın parlament üzvlərinin də təhlükəsizlik sektoru islahatına fərqli töhvələri vardır. Qadın parlamentarlar da öz kişi həmkarları kimi rəngarəng olduğundan, TSİ-ı üzrə hər hansı bir xüsusi yanaşmani heç də müdafiə etməzlər. Lakin, Ümumi-Afrika Parlamentinin Sədri Qettrud Monqelanın ( Gettrude Mongella) qeyd etdiyi kimi,"qadınların iştirakı təkcə praktiki səviyyədə bərabər imkanlar açmır,həmçinin aparılan siyasətə yeni perspektiv və rəngarəng töhvələr təklif edir və inkişafa prioritetlik verir[36]. Ruanda genosidindən sonra, qanunvericilik kvotalarına yol açan seçki islahatları, qadın parlamentarların sayına görə Ruandanı dünya lideri olmağa gətirdi, parlamentarların 48,8%-i qadınlardan təşkil olundu[37].Qadın parlamentarlar ilk dəfə olaraq,qadın məsələləri ilə bağlı bütün partiyaları əhatə edən qrup qurdular və bu qrupa həm Hutu və həm də Tutsilər daxil oldular. Bu qrup, qadınların etnik mənsubiyyətindən və ya partiya üzvlüyündən asılı olmayaraq qadın təhlükəsizliyi məsələləri ilə məşğul oldu,qadınların miraslara sahib olmaq hüququ haqda, əri ölən dul qalmış qadının öz ərinin kişi qohumlarının mülkiyyətinə iddia hüququ haqda  və gendər əsaslı[38] zorakılıq haqda qanun təşəbbüsləri ilə çıxış etdilər". Afrika, Avropa, Latın Amerika və Karib hövzəsinin münaqişəli ölkələri də daxil olmaqla 1999-cu ildə 65 ölkənin187 qadın siyasətçisi arasında aparılan sorğu, siyasətə qoşulan qadınların necə fərqlilik

---

[35] Anderlini, S.N.,Demokratiyaya keçid və Təhlükəsizlik sektoru İslahatı Danışıqları: Cənubu Afrika qadınlarının həyati məna daşıyan töhvələri(Hunt Alternatives Fund, Əhatəli Təhlükəsizlik Təşəbbüsü Vaşington Avq. 2004), s. ix, 23–25.
[36] İsnad AWEPA-ya edilmişdir (qeyd 28), s. 61.
[37] Parlamentlərarası Birlik (İPU), 'Women in national parliaments', 31 Dek. 2007, <http://www.ipu.org/wmn-e/world.htm>
[38] Çox sayda münaqişə sonrası ölkələrdə kişi cinsindən olan ailə başçısı öldükdə və ya itkin düşdükdə və yerini dəyişən insanlar evlərinə geri döndükdə torpaq mülkiyyətinin nümayiş etdirilməsi təcili tələb olunur. Bax: Luciak, I. A., 'Conflict and a gendered parliamentary response', UN Development Programme (UNDP), Apr.2006, <http://www.parlcpr.undp.org/docs/conference/Luciak.pdf>, p. 39; AWEPA (note 28), p. 66; and Powley, E., 'Rwanda: the impact of women legislators on policy outcomes affecting children and families', UNICEF, Dek. 2006, <http://www.unicef.org/sowc07/docs/powley.pdf>, s. 11

yaratdıqları haqqında onların düşüncələrini ortaya qoymuşdur. Qadınlar sosial müdafiə,gendər bərabərliyi,qadın və uşaqlara qarşı zorakılıqla mübarizə,iş yerləri, xidmətlər,ekologiya və az miqyasda olsa da silahlara nəzarət və münaqişə həlləri üzrə sahələrdə görünən uğurlara nail oldular[39].

Serbiyanın hazırladığı bacarıqlar qurma proqramları, münaqişə sonrası ölkələrdəki TSİ-ı proseslərində qadınların tam iştirakını dəstəkləmək üçün faydalı şəkildə istifadə edilə bilər[40]. Serbiyada, daxili işlər nazirliyi və müdafiə nazirliyindəki qadınlar, qadın parlamentarlar,siyasi və QHT fəalları və jurnalistlər özlərinin təhlükəsizlik üzrə xüsusi baxışlarını TSİ-ı prosesinə daxil etməyə cəhd edirlər. 2007-ci ildə, Siyasi Yetkinlik üzrə Belqrad Mərkəzi, qadınların təhlükəsizlik sektorunda təmsilini artırmaq və onların bu sektorun islahatı prosesində iştirakını gücləndirmək üçün proqram irəli sürmüşdür. Burada qadınların insan təhlükəsizliyi və qlobal təhlükəsizlik məsələləri, çoxtərəfli təhlükəsizlik təşkilatları, sülh quruculuğu və qadınların bu məsələlədə rolları və verə biləcəkləri töhvələri müzakirə etmək üçün seriya seminarlar təşkil edildi. İkinci mərhələdə, qadınlar daha spesifik olaraq,BMT Təhlükəsizlik Şurasının 1325 Qətnaməsinin Serbiya və Şərqi Balkanlarda yerinə yetirildiyini vurğulayaraq ,təhlükəsizlik agentliklərinin islahatında qadınların rolunu gözdən keçirdilər[41].

## 4. Münaqişə sonrası təhlükəsizlik xidmətlərində qadınların tam və bərabər iştirakının təşviq edilməsi

### 4.1. Qadınların təhlükəsizlik xidmətlərində iştirakına qarşı problemlər

Yuxarıda qeyd edildiyi kimi, TSİ-ı prosesində qadınların lazımi səviyyədə təmsil olunmaması, münaqişə sonrası ölkələrdə təhlükəsizlik xidmətlərinin yüksək dairələrində qadınların çox az təmsil olunması ilə əlaqəlidir( Cədvəl2-də bir sıra keçid dövrü yaşayan, inkişaf etməkdə olan və inkişaf etmiş olan ölkələrin rəqəmləri müqayisə üçün verilir). Bir sıra hallarda, qadınların rəsmi olaraq polis və başqa təhlükəsizlik xidmətlərində işləməsinə maneə qoyulur, lakin əksər hallarda onların aşağı sayda təmsil olunması işə alınma zamanı qoyulan qeyri rəsmi maneələrlə bağlı olur və qadınların bu sahədə rütbə artışına və ya xidmətdə qalıb çalışmasına da yerli ənənələrin təsiri olur. Demokratik ölkələrdə,qadınların təhlükəsizlik sektoru təsisatlarında işləmək hüquqları, onların vətəndaşlıq hüquqlarının bir parçası olur. Prinsipcə, təhlükəsizlik xidmətləri daxilində bütün vəzifələr gendər, siyasi baxış,sinif,irq və dinindən asılı olmayaraq bütün vətəndaşlara açıq olmalıdır. Qadınlara qarşı Ayrı-Seçkiliyin bütün formalarının Ləğv edilməsi haqqında BMT Komitəsi, qadınların orduda xidməti ilə əlaqədar verdiyi şərhdə bunları təsdiq etmişdir: “Ordu, qadınların vətəndaş kimi rolları üçün vacibdir...Ordu Dövlət qaydasının, qərar qəbul

[39] Parlamentlər-arası Birlik,Siyasət: Women’s Insight (IPU: Geneva, Jan. 2000), s. 5.
[40]Serbiya ‘post-münaqişə ölkəsidirmi’ ifadəsi müzakirə mövzusudur, lakin buna baxmayaraq Siyasi Yetkinlik üzrə Belqrad Fondunun proqramlarının zəruriliyi qalır.
[41] Petrovic, N., Proqram koordinatoru, Siyasi Yetkinlik üzrə Belqrad Fondu, Müəlliflə şəxsi yazışmalar, 7 Noy. 2007.

**Cədvəl2. Seçilmiş ölkələr üzrə polis qüvvələrində xidmət edən qadın zabitlərin nisbəti**

| Ölkə | İl | Qadın polis zabit nisbəti |
|---|---|---|
| *Münaqişə -sonrası* | | |
| Cənubi Afrika | 2006 | 29 |
| Kıpr | 2006 | 16 |
| Syerra Leone | 2006 | 15 |
| Kosovo | 2006 | 14 |
| *Keçid və inkişaf etməkdə* | | |
| Yamayka | 2001 | 18 |
| Çex Respublikası | 2001 | 12 |
| Veneseula | 2002 | 10 |
| Rumıniya | 2005 | 8 |
| Hindistan | 2006 | 2 |
| *İnkişaf etmiş* | | |
| Avstraliya | 2002 | 29 |
| Kanada | 2005 | 18 |
| İsveç | 2001 | 18 |
| ABŞ | 2006 | 12-14 |
| Finlandiya | 2004 | 10 |

Mənbə: T. Denham " Polis islahatı və gendər", Red. M. Bastik və Valasek K. dərc etdikləri "Gendər və Təhlükəsizlik sektoru islahatı Vəsaiti "(DCAF, ATƏT/ İnsan Hüquqları və Demokratik Təsisatlar Ofisi və BMT Qadınların İnkişafı üzrə Beynəlxalq Tədqiqat və Təlim İnstitutu, cenevrə, 2008.

olunmasının və idarəçiliyin vacib elementini təşkil etdiyindən bütün vətəndaşlar nə cür orduya malik olduqları haqqında bilgiyə sahib olmalıdırlar"[42]. BMT Təhlükəsizlik Şurasının 1325 Qətnaməsi təhlükəsizlik xidmətlərində iştirakın bir tərəfi kimi, münaqişələrin idarə edilməsi və həll olunması mexanizmlərində qadınların iştirakına çağırır. Daha geniş mənada desək, təhlükəsizlik qüvvələrinin tərkibi geniş cəmiyyəti əks etdirməlidir:qadınların iştirakı, təmsilçi strukturların və beləliklə inanilmış və legitim strukturların yaradılmasında əhəmiyyət daşıyır.

Qadınlar həm də təhlükəsizlik təsisatları üçün günbəgün tələb olunan vacib insan təcrübəsi resurslarıdır. Qadınların sülhməramlı fəaliyyətlərə cəlb edilməsinin ən müsbət təcrübələri,onların bu cür hərbi tapşırıqlara daxil edilməsinin operativ faydalarını önə çıxardı[43]. Engelbrkston,

---

[42] Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə BMT Komitəsi (CEDAW), Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Konvensiya: Konvensiyanın 7-ci və 8-ci maddələrinin analizi, CEDAW/C/1994/1, 30 Nov. 1993, <http://www.un.org/documents/ga/
cedaw/13/cedawc1994-4.htm>. Bax: Klein, U., 'The gender perspective of civil–military relations in Israeli society', Current Sociology, vol. 50, no. 5 (Sep. 2002), pp. 669–86. Klein təklif edir ki, qadınların orduda iştirakı olmadan ,qadınlar öz səslərini təhlükəsizlik üzrə müzakirələrdə çıxara bilməyəcəklər.

[43] Qadınların sülhməramlı qüvvələrdə praktiki faydaları burada müzakirə edilir. Vlachová, M. and Biason, L. (eds), Women in an Insecure World: Violence against Women—Facts, Figures and Analysis (DCAF: Geneva, 2005); GenderForce: Sweden, 'From words to action', 2005, <http://www.genderforce.se/>; Valenius, J., Gender Mainstreaming in

qadınların sülhməramlı əməliyyatlarda iştirakını "uğur üçün açar " kimi təsvir edir, bu adətən tamamilə kişilərdən ibarət hərbi qüvvələrin müəyyən əməliyyat məhdudiyyətlərini dəf etmək üçün,məsələn,qadınların axtarışı və onların istintaq edilməsi ilə əlaqədar əməliyyatlarda baş verir[44]. BMT-nin Sülhməramlı Əməliyyatlarla bağlı Departamenti sülhməramlı polis və hərbi qüvvələrin 10 faizinin qadın olması barədə hədəf müəyyən etmişdir.

Qadınların polis xidmətinə artan şəkildə cəlb olunmasının faydaları da çox yaxşı işıqlandırılmışdır. ABŞ-da və beynəlxalq səviyyədə aparılan tədqiqatlar, xidmət zamanı qadın polislərin az fiziki güc işlətdiklərini nümayiş etdirmişdir, onların həddən artıq güc işlətməsi ehtimalının az olduğunu və vətəndaşlarla ola biləcək zorakı qarşıdurmanın baş verməməsi və ya azaldılması baxımından onların daha uyğun olduğunu göstərmişdir. Əlavə olaraq, qadın polis işçiləri çox zaman öz kişi həmkarlarından fərqli olaraq daha yaxşı ünsiyyət qabiliyyətinə malik olur və icma polis modeli üçün zəruri olan əməkdaşlıq və inam keyfiyyətlərini daha tez qazanırlar[45]. Qadınların seksual və ya ailə daxili zorakılığa məruz qaldığı yerlərdə,məsələn, Konqo Demokratik Respublikasında,Hindistanda və Syerra Leone –de bu faktlara baxsaq, əksər dəlillər göstərir ki, burada qadınlar belə hallarda ilk növbədə qadın polislərə və ya qadın polis şöbəsinə xəbər verir və ya ənənəvi polis strukturları daxilində[46] kişi polis zabitinə yox ailə üzvlərinə xəbər verməyi üstün tutur. BMT Model Strategiyaları və Cinayətin Qarşısının alınması və Cinayət Hüquq Sahəsində Qadınlara qarşı Zorakılığın Ləğv edilməsi ilə bağlı BMT Baş Məclisi tərəfindən təsdiq olunan Praktiki Tədbirlər və BMT Model Strategiyaları " Qadınları polis xidmətlərində, o cümlədən, operativ səviyyədə işləməyə həvəsləndirin"[47] deyə ölkələrə çağırış edir.

### 4.2. Münaqişə- sonrası təhlükəsizlik xidmətlərində qadınların iştirakı

Liberiya kimi münaqişədən çıxan bir sıra ölkələr qadınların təhlükəsizlik xidmətlərində işə alınmasını önə çəkirlər. Münaqişə sonrası ölkələrdə, xüsusilə, ailə daxili və zorlama hallarını nəzərə alsaq, qadınlara qarşı zorakılığın yüksək olması,qadınların xüsusi təhlükəsizlik tələblərini qarşılayan polis xidmətlərinə olan ehtiyacı artırmışdır və o cümlədən, qadınların xidmətə alınmasına gətirmişdir. Qadına qarşı zorakılığın aradan qaldırılması Əfqanıstanda,Kosovoda, Liberiya və Syerra Leone-də təhlükəsizlik sektorunun islahatı zamanı prioritetləşdirilmişdir və bu ölkələrin hər biri bu məqsədlə xüsusiləşmiş polis birlikləri qurmuşdur.

---

ESDP Missions, Chaillot Paper no. 101 (EU Institute for Security Studies: Paris, May 2007), s. 28; and Pillay, A., Gender, Peace and Peace-keeping: Lessons from Southern Africa, Institute for Security Studies (ISS) Occasional Paper no. 128 (ISS: Pretoria, Oct. 2006)

[44]Engelbrektson, K.,Burada isnad edilib: Gender Force: Sweden (qeyd 42).

[45] Lonsway, K. et al., Qadın və Polis Xidməti üzrə Milli Mərkəz 'Hiring & retaining more women: the advantages tolaw enforcement agencies', 2003, http://www.womenandpolicing.org/pdf/NewAdvantagesReport.pdf,s. 2.

[46] Bax. Suddle, M. S., 'Polis qüvvələrinin Cənubi Asiyada islahatı', Cinayət hüquq sisteminin Gücləndirilməsi :Dakkada keçirilən regional seminar , Bangladesh, 30–31 May 2006 (Asian Development Bank: Manila, Jan.2007), p. 56; Rehn and Johnson Sirleaf (note 10), p. 73; Kandaswamy, D., 'Indian policewomen practice policing and politicking', Ms. Magazine, winter 2004; and Fakondo, K.,Şəxsi müsahibə, 17 Sent. 2007, Denham, T., 'Police reform and gender', eds Bastick and Valasek (note 18).

[47] BMT Baş Məclisi Qətnaməsi 52/86, UN document A/RES/52/86, 2 Feb. 1998, annex 8.

Çox sayda münaqişə-sonrası ölkələrdə qadınları uniformada görmək ənənəsi aşağı səviyyədədir və qadınların tam və bərabər şəkildə təhlükəsizlik xidmətlərində iştirakına əsas maneə yerli sosial münasibətdir. Lakin, münaqişə sonrası dövr qadınlar üçün də imkanlardan biri ola bilər. Silahlı münaqişə zamanı qadınlar öz ailələrinin təhlükəsizliyi üçün öz üzərinə yeni məsuliyyətlər götürdüyü zaman və ya özləri silahlı qruplara qoşulduqları zaman, gendər rolunun dəyişməsi qadınların təhlükəsizliyə verdiyi töhvələrin yenidən təsdiq edilməsinə kömək edə bilər. Münaqişəli vəziyyətdə yaşamaq qadınlara təhlükəsizlik məsələləri üzrə yeni təcrübələr, bilik və liderlik keyfiyyətləri qazandırır və silahlı qüvvələrin rəhbərliyinin yerli əhali ilə münasibətlərinə yeni anlam verır[48]. TSİ-ı prosesləri, münaqişə zamanı qadınların statusunda baş verən bu cür müsbət dəyişikliklər üzərində qurula bilər və onu dəstəkləyə bilər. Təhlükəsizlik təsisatlarının yenidən qurulması zamanı, TSİ-ı qadınların xidmətə alınmasının sayının artırılması üçün bir sıra tədbirlər görməli və təkcə polis və hərbi qüvvələrdə deyil, həm də kəşfiyyat xidmətlərində, cəza xidmətlərində, sərhəd xidmətində,məhkəmə sistemində və bu sistemləri idarə edən təsisatlarda qadınlara dəstəkləyici iş mühiti yaratmalıdır. Bu tədbirlərə, qadınların işə alınma hədəfləri və qadınları polis xidmətində işə cəlb etmək üçün qurulmuş strategiyalar daxildir. DDR proqramlarına aid olan linklər(V bölməyə baxın) keçmiş qadın döyüşçülərin yeni təhlükəsizlik xidmətlərinə inteqrasiyasına kömək edər.

Qarışıq uğurlarla bu cür strategiyalar Kosovoda yerinə yetirilmişdir. 1999-cu il Mart-İyun NATO əməliyyatlarından dərhal sonra yeni ilkin polis xidməti proqramlarında qadınların kadet kimi təlimlərinə əhəmiyyətli dərəcədə yer verildi. Münaqişədən öncə heç bir qadın Kosovo polisində xidmət etmirdi[49]. Yeni polis təlimi kursları zamanında, kursları bitirənlərin ən azı üçdə biri qadınlar oldu və hal-hazırda Kosovo polisinin 14 faizi qadınlardan ibarətdir. Lakin, qadınlar Kosovo Sərhəd və Sərhəd polisi Təlim Birliklərində işə girmədilər. Qadınlar bunu onunla izah etdilər ki, onların ailələri və ya ərləri onlara evlərindən uzaq məsafədə işləməyə izn vermirlər və beləliklə, qadınların təhlükəsizlik xidmətlərinin bütün qollarında tam və bərabər şəkildə iştirak edə bilməmələrinin qarşısında duran sosial manelərə açıqlıq gətirildi[50].

Əfqanıstanda da qadınların polis xidmətlərinə cəlb olunması üçün çox səylər edilir. Əfqanıstanda kişi və qadınların ayrı tutulmasına görə,cinayətin qadın qurbanları və ya qadın şübhəliləri ilə bağlı qaldırılan işləri aparmaq üçün qadın polislərin yeri unikal ola bilir. Qadınlara qarşı davamlı zorlama halları, Əfqan qadınlarının son zamanlarda özlərini yandıraraq intihar etməsi hallarının kəskin şəkildə artmasına səbəb olmuşdur və ya namus üstündə öldürülməsinə gətirmişdir[51]. Bu cür hallar qadınların uyğun polis xidmətlərinə çıxışlarının təmin edilməsinin təcililiyinin ciddiliyini artırır. Qadınların da gündəlik polis xidmətində fəaliyyətləri tələb olunur. Əfqanıstan Milli Polisinin Uruzqandakı kişilərdən ibarət əməkdaşları şikayət edirlər ki, onlar sərhəd

---

[48] Anderlini, S. N. və Conaway, C. P., ‘Təhlükəsizlik sektoru islahatı’, Əhatəli təhlükəsizlik,Dayanıqlı sülh : Müdafiə və Fəaliyyət Vəsaiti (Hunt Alternatives Fund and International Alert: Washington, DC, 2004), s. 35.

[49] Novovic və Petrovic (qeyd 24),s. 35.

[50] Mackay, A., ‘Sərhəd idarəetməsi və gendər’, Bastick and Valasek (qeyd 18).

[51] Amnesty International, Əfqanıstan qadınları hələ də hücum altındadır—Müdafiə sistemli olaraq iflasa uğrayib (Amnesty International: London, May 2005), s. 23–25; və Birləşmiş bölgəsəl İnformasiya Şəbəkəsi, ‘Afghanistan: namus ölümləri artır’, 15 Sep. 2006, <http://www.irinnews.org/report.aspx?reportid=61698>

məntəqəsində paranca geyənləri qadın əməkdaşlar olmadığından yoxlaya bilmirlər və nəticədə kişilərin qadın forması geyib keçməsilə təhlükəsizlik pozulur[52].

Bu günə qədər,Əfqan polisinə qadınların cəlb olunması məhdud səviyyədədir; 2007-ci ilin İyuluna qədər 71147 sıravi polis üçün təlim keçirilmiş, onlardan ancaq 118-i qadın olmuşdur və bütün ölkə ərazisində 232 qadın polis vardır. Rəhbər vəzifələrdə yer tutacaq qadınlar üçün spesifik xidmətə qəbul etmə və təlim strategiyalarının olması vacibdir. Qadınların polis xidmətinə cəlb edilməsi işlərinə Kabul Polis Akademiyasının qadın yataqxanası və qadınların öz ailələrindən çox da uzun müddətdə xidmət etmələrini tələb etməyən və regional təlimə əsaslanan pilot layihələr təşkil edir[53]. BMT Əhali Fondu, Əfqanıstan Milli Polisi daxilində Ailə Cavab Birlikləri qurulmasını dəstəkləyir. Bu birliklərdə qadın polis əməkdaşları çalışır və onlar qadınlara qarşı zorakılıqa, fəlakət vəziyyətində olan və qaçırılan uşaqlarla bağlı hallar üzrə iş görmək imkanı verən təlimlər keçir,cinayətə məruz qalmış qadınlara kömək edir və qadın şübhəlilərdən ifadə alır,onları həbsdə saxlayır və təhqiqat aparır[54].

Lakin, qadınların sadəcə iştirakı yetərli deyil. Bir QHT-nin Syerra Leone-dən verdiyi xəbərə görə,” qadın polis əməkdaşları xidmətə alınsa da və polis qüvvələrinin aşağı rütbəli əməkdaşları gendər həssaslığı barədə təlimlər keçsə də, komandirlər təlimlərdən kənarda qalırlar”. Qadın polis əməkdaşlarının işi bəzən kişi polis əməkdaşlarına nahar yeməyi hazırlamaqdan o tərəfə keçmir[55]. Belə hallar, təhlükəsizlik təsisatları boyunca və həm də ən yüksək səviyyələrdə qadınlara qarşı ənənəvi baxışların dəyişdiyi mühitin dəstəklədiyi xidmətə alma tədbirlərinin vacib olduğunu göstərir. Bunun özü gendər problemləri uçotu tədbirləri tələb edir. Bütün işçilər üçün gendər və insan hüquqları təlimləri, ayrı-seçkilik və seksual alçalmaları qadağan edən daxili kodekslər və şəffaflıq və ayrı-seçkilik edilməyən stimullaşdırıcı strukturlar qadınların təhlükəsizlik xidmətlərinə uğurla inteqrasiya edilməsi və inteqrasiyadan yararlanması üçün zəruri şərtlərdir.

## 5. Gendər və spesifik münaqişə sonrası təhlükəsizlik sektoru islahatı problemləri

### 5.1. Gendərin tərksilah, tərxisetmə və cəmiyyətə yenidən inteqrasiya işlərinə cəlb edilməsi

Münaqişə sonrası sülh quruculuğu çərçivəsində TSİ-ı və DDR arasında güclü bağlar olur, məsələn OECD DAC təsdiq edir ki, “bu iki məsələyə çox zaman çoxtərəfli təhlükəsizlik və inkişaf proqramının bir hissəsi kimi birlikdə baxıldıqda daha yaxşı olur”[56] . Son illərdə,qadın və

[52] Aparıcı mütəxəssis Verwijk, M. tərəfindən müsahibə yayılıb:, Hollandiya Xarici İşlər Nazirliyi,isnad edilib: Valasek, K., ‘Security sector reform and gender’, red. Bastick və Valasek (qeyd 18).

[53] Beynəlxalq Böhran Qrupu (ICG), Əfqanıstan polisinin islah edilməsi, Asia Report no. 138 (ICG: Brussels, 30 Aug.2007),s. 10–12.

[54] BMT Əhali Fondu, ‘Əfqanıstanın ilk aliələrə cavab birlikləri işə başlayır’, 24 Yan. 2006, <http://www. unfpa.org/news/news.cfm?ID=740

[55] Refugees International, ‘Sierra Leone: promotion of human rights and protection for women still required’,18Mar.2004, http://www.refugeesinternational.org/content/article/detail/949/

[56] OECD, OECD DAC Təhlükəsizlik sektoru islahatı üzrə Kitabçası: Təhlükəsizlik və Ədalətə Dəstək (OECD: Paris, 2007), s.105. Bax: Bryden, A., ‘ DDR–TSİ-ı oxunun başa düşülməsi:Afrikada dayanıqlı sülhün qurulması’, DDR və Afrikada Sabitlik üzrə İkinci Beynəlxalq Konfrans , Kinshasa, 2–14 İyul 2007, <http://www. dcaf.ch/publications/kms/details.cfm?id=34308>, s. 5

qızların silahlı münaqişələrdə iştirakının ölçüləri və cürbəcür formaları haqqındakı xəbərlər, tərksilah, tərxisetmə və cəmiyyətə yenidən inteqrasiya (DDR) planlarının onları əhatə etmədiyi fikrinə gətirmişdir[57].1998-2002 ci illər arasında Syerra Leone-də döyüşçü qızların təqribən 88%-i DDR proqramlarından kənarda qalmışdır.[58] Gendər –həssas DDR proqramlarına tələbat olduğu BMT Təhlükəsizlik Şurasının 1325 Qətnaməsində də təsdiq edilmişdir və bu Qətnamə, "tərksilah, tərxisetmə və cəmiyyətə yenidən inteqrasiya üzrə planlama işlərini aparanları, bütün keçmiş qadın və kişi döyüşçülərin müxtəlif tələblərini nəzərə almağa və onların ailə üzvlərinin ehtiyaclarını hesaba almağa çağırır[59]. BMT Qadın İnkişaf Fondunun (UNİFEM) Gendər – məlumatlı Tərksilah, Tərxisetmə və Cəmiyyətə yenidən inteqrasiya cədvəli və BMT-nin Birləşmiş DDR Standardları (İDDRS) indi tərxisetmə və yenidən inteqrasiya dövründə qadın və qızların xüsusi tələbləri ilə məşğul olmaq üçün ətraflı təlimatlar təmin edir[60].

Qadın və qızlar çox zaman DDR proqramları üçün tələb olunan ənənəvi seçim kriteriyalarını qarşılamaq üçün çətinliklərlə üzləşirlər, yəni onlar bilavasitə silahlarını təslim etməli və ya özlərinin hərbi rütbələrini və ya orduya çağrıldıqlarını sübut etməlidirlər. Qadınların bir qismi döyüşçü olsa da, onların çoxu asılı olduqları kişi döyüşçülərin tərxis olunması ilə öz sosial müdafiə dəstəklərindən məhrum olurlar. İDDRS-in bəyan etdiyi kimi: "Əgər DDR-ın məqsədi geniş-mənada əhalinin təhlükəsizliyini təmin etməkdirsə, o zaman o, bu cür qadın qruplarının xüsusi tələblərini qulaqardına vuraraq müdafiəsiz vəziyyət yaratmalı deyil"[61].

İDDRS-nin təklif etdiyi qazanan qadınlar adlanan ekstra kateqoriyanın tanınması, "qadın dəstəkçilər /silahlı qüvvələrlə əlaqəli olan qadınlar və qruplar" və "qadın asılılar" terminləri, qadın və qızların nəzərdən qaçırılmadığını təmin etmək üçün dizayn edilmişdir.

Hətta qadın və qızlar kağız üzərində bu cür sxemlərə salınsa da, Liberiya və Syerra-Leone-dəki TSİ-ı proqramında rast gəlinən hallar göstərdi ki, onlar cürbəcür gendər -əsaslı səbəblərə görə, məsələn, onların fiziki təhlükəsizliyinə yönəlmiş qorxuya görə, o cümlədən, toplaşma məntəqələrində çox sayda kişi cinsindən olan keçmiş döyüşçülərdən gələn seksual zorakılıq risklərinə görə, silahlı münaqişədə iştirak etdiyinə və ya silahlı qruplara qoşulduğuna görə, cəmiyyətdə onlara qarşı yaranan sosial qınağa görə[62] bu cür DDR proqramlara salınmaya da

---

[57] McKay, S. və Mazurana, D.,Qızlar haradadır? Şimali Uqandada, Syerra Leone-də və Mozambikdə Döyüşçü Qüvvələr tərkibində vuruşan Qızlar: Müharibə zamanı və sonrası onların həyatı (Rights & Democracy: Quebec, 2004), s. 14.

[58] M. Paterson-un Bəyənatı: , Baş Məsləhətçi, Gendər Bərabərliyi Şöbəsi, CIDA, 'Forum report', Qadın və liderlik: Təhlükəsizlik və İnkişafa doğru Səslər, Ottawa, 28–29 Noy. 2002,s. 20.

[59] BM Təhlükəsizlik Şurası Qətnaməsi325 (qeyd 3).

[60] BM Qadın İnkişaf Fondu(UNIFEM), 'Gendər-məlumatlı tərksilah, tərxisetmə və inteqrasiya (DDR): cədvəl', 2004, <http://www.undp.org/cpr/cpr_all/4_cross_cutting/4.1_gender/1_UNIFEM_DDR_ Checklist.pdf>; və BM Tərksilah, Tərxisetmə və İnteqrasiya Resurs Mərkəzi, 'Birləşmiş tərksilah, tərxisetmə və inteqrasiya standardları:qadın, gendər və DDR', 2006, <http://www.unddr.org/iddrs/05/index.php?search_phrase=Women_gender_and_DDR>

[61] BM Tərksilah, Tərxisetmə və İnteqrasiya Resurs Mərkəzi (qeyd 60) s. 11.

[62] McKay və Mazurana (qeyd 57),s. 101.Bax: Mazurana, D. and Carlson, K., Döyüşdən İcmalara qədər : Syerra Leone-də qadın və qızlar (Hunt Alternatives Fund, Initiative for Inclusive Security: Washington, DC, Yan. 2004), p. 3; Coulter, C., '"Kol-kos arvadları" rehabilitasiya proqramında cüzi yer tuturlar', New Routes, vol. 11, no. 4 (2006), pp. 4, 10; and Bouta, T., Frerks, G. və Bannon, I., Gendər, Münaqişə və İnkişaf (World Bank: Washington, DC, 2005), s. 18

bilərlər. Bütün bunlar, qadınların spesifik qayğılarını və qadın döyüşçülərlə və dəstəkçilərlə birbaşa xəbərləşmə metodlarını nəzərə alan xüsusi məlumatların DDR proqramlarına salınmasını tələb edir.

Liberiyada yerli qadın təşkilatları, DDR məlumatlarınn hazırlanması və yayılmasında aparıcı tərəfdaş təşkilatlar olmuşdur. İlkin tələbat qiymətləndirməsinə görə, təqribən 2000 qadın döyüşçü DDR prosesindən keçmişdir. 2003-cü ildə qadın qrupları Liberiyanın Narahat Qadınları bayrağı altında təşkilatlandılar və DDR işlərinə cəlb olundular. Onlar,BMT missiyası və Gendər və İnkişaf Nazirliyi ilə işləyərək, qəzet və radio imkanlarından istifadə etməklə qadın və qızların DDR proseslərində iştirakını təşviq edən məlumatlandırma kampaniyası keçirməyə kömək etdilər[63]. 2005-ci ilin Fevralına qədər, DDR proqramında olan 101495 nəfərdən 22370 qadın və 2440 qız olmaqla tərksilah edilib tərxis edildi. Döyüşçü qüvvələr ilə bağlı olan qadınlar və həmçinin,qadın döyüşçülər müəyyən edildi.[64] 2006-cı ilin sonuna qədər,bu qadınların 13223 nəfəri əsasən kənd təsərrüfatı,təhsil və ya peşə təlimlərinə yenidən "daxil edildi"[65].

**Gendər həm də döyüşçülər və oğlanlar üçündür**

***Kişilik və zorakılıq***

**Kişilik anlayışı çox zaman silah sahibi olmaqla əlaqələndirilir. Zorakı kişilik kimliyini qeyri-zorakı kimliyə çevirmək üçün, döyüşçünün gendər kimliyinin, rolunun və münasibətlərinin seksual və gendər əsaslı zorakılığın törədilməsi ilə necə bağlı olduğunu nəzərdən keçirmək vacibdir.**

***Seksual və gendər-əsaslı zorakılığın kişi cinsli qurbanları***

**Yetkinlik yaşına çatmış döyüşçülər və oğlanlar orduda xidmət zamanı və ya hərbiləşmiş qruplara qaçırılan zaman başqa döyüşçülər tərəfindən bəzən xidmətə başlama və ya inteqrasiya ritualları adı altında seksual zorakılığa məruz qalırlar. Seksual və gendər əsaslı zorakılığa kişi cinsindən olan döyüşçülərin də məruz qalmasına xüsusi diqqət verilməsi əhəmiyyət daşıyır. Kişi cinsindən olan döyüşçülər az –az hallarda hadisə barədə xəbər verirlər, çünki bu cür məsələlər əksər cəmiyyətlərdə tabu kimidir.**

[63] BM Sülhməraml Əməliyyatlar Departamenti, Sülhməraml Əməliyyatlarda gendər problemləri uçotu: Progress Report (United Nations: New York, 2005), s. 31–32
[64] BM Tərksilah, Tərxisetmə və İnteqrasiya Resurs Mərkəzi, Liberiya ölkə proqramı, 1 İyun 2007, <http://www.unddr.org/countryprogrammes.php?c=52>; and UNMIL,Tərksilah, Tərxisetmə və İnteqrasiya və rehabilitasiya,İyun1, 2007, <http://www.unmil.org/content.asp?ccat=ddrr>.
[65] Liberiyadakı BM Missiyası (qeyd 32).

*Kişilərin ənənəvi rolları*

**Öz ənənəvi rollarını yerinə yetirmək iqtidarında olmayan döyüşçülər (evi dolandırmaq məsələsində) çox zaman kimlik böhranı yaşayırlar.Bu cür hal ailə- daxili zorakılıq və alkoqol və narkotikdən istifadəni artırmağa gətirir.**

**Tərksilah, Tərxisetmə və yenidən İnteqrasiya proqramları kişilərin şablon rollarını gücləndirməli deyil, əksinə uyğun məsləhət mexanizmləri və çevik sosio-iqtisadi dəstəklə təmin etməlidir. Bu seksual və gendər əsaslı zorakılığın törədilməsinin qarşısını alan mühüm cəhətdir.**

Mənbə: BMT –nin Birləşmiş Tərksilah, Tərxisetmə və yenidən İnteqrasiya standardlarından (İDDRS) adaptasiya edilmişdir. İşçi təlimatı http://www.unddr.org/iddrs/og/OG_5_10.pdf>, s. 195.

Gendər –həssas DDR, həm də əsgərlərin və yeniyetmələrin xüsusi tələblərini qəbul etmək və tanımaq və onların rollarına və birlikdə yaşadığı icmalardakı mümkün seçimlərinə cavab verməkdir. İDDRS İşçi Təlimatı üç sahəni önə çəkir və orada da “Gendər həm də oğlanlar və kişilər üçündür”(yuxarıdakı Haşiyəyə baxın).Tərksilahın effektiv olması üçün, fərdin silah sahibi olması imtiyazı və güçünü əvəz edən stimulların təmin edilməsi faydalı ola bilər[66]. Yerli icmaların silah toplanması proseslərinə cəlb olunması ilə, sosial təzyiqlər silah əldə edilməsinə yox,silah əldə edilməməsinə doğru dəyişəcəkdir. Döyüşçülərin tərxis olunması prosesində, seksual zorakılığa məruz qalan və ya seksual zorakılıq törədənlərlə bağlı ortaya çıxan məhrumiyyətləri aradan qaldırmaq üçün dəstək proqramları olmalıdır. Natali de Vattevil (Nathalie de Watteville) qeyd edir ki, müharibə zamanı zorakılıq və qəddarlıq törətmiş və tərxis edilmiş işsiz gəncin, xüsusilə də, şəhər yerlərində bandit dəstəsi qurmaq ehtimalı başqalarından daha çox olur və belə hal qadın və uşaqların təhlükəsizliyinə daimi təhlükə yarada bilir. Keçmiş döyüşçülər üçün alternativ həyat şəraiti təmin edən iqtisadi yenidən inteqrasiya proqramlarından başqa,yenidən inteqrasiya dövründə psixoloji xidmətlər də davam etməlidir.

## 5.2. Gendərin Keçid Ədliyyə və Hüquq islahatlarına İnteqrasiya edilməsi

“Keçid ədliyyəsi”, hesabatlılıq və boynuna alma prosesi quraraq yavaş-yavaş barış fəaliyyəti dairəsi müəyyən etməklə və zorakılığın yenidən baş verməsinin qarşısını almaqla və beləliklə, dayanıqlı sülhü təmin etməklə münaqişə sonrası ölkələr içində mühüm yer tutur. Keçid ədliyyəsi xüsusi olaraq müvəqqəti yaradılmış orqanlar vasitəsilə, xüsusi hal üçün yaradılmış tribunallar, həqiqət və barışıq komissiyaları və kompensasiya proqramları və ya dövlətin daimi ədalət mexanizmləri ilə həyata keçirilə bilər. Münaqişə sonrası ölkələrdə, keçid ədliyyəsi mexanizmləri çox zaman geniş hüquq islahat prosesinin bir hissəsi olur və təhlükəsizlik sektorunda geniş islahatla yaxından əlaqəli olur.

[66] BM Tərksilah, Tərxisetmə və yenidən İnteqrasiya Standardları (IDDRS), Module 5.10
Qadın, gendər və DDR,<http://www.unddr.org/iddrs/05/download/IDDRS_510.pdf>, s. 18

Keçid ədliyyəsi, müharibə zamanında qadınlara qarşı seksual və gendər -əsaslı zorakılıq törədilməsi hallarına qarşı tədbirlər görülməsində xüsusi əhəmiyyətli rol oynayır. Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Tribunal(İCTY) və Ruanda üzrə Beynəlxalq Cinayət Tribunalı(İCTR) zorlama və seksual zorakılığın başqa formaları haqqında müharibə cinayətləri, bəşəriyyətə qarşı cinayət və genosid aktları kimi ilk məhkəmə qərarları çıxarması əvvəllər edilməmiş işlər idi. İSTY və İSTR-ın yurisprudensiyası münaqişə dövründə seksual zorakılığın fərqli formalarının beynəlxalq hüquqa görə cinayət olduğunun tanınması və anlaşılması məsələsində əhəmiyyətli olmuşdur. Lakin, beynəlxalq tribunallar seksual zorakılığın qurbanlarını qorumaq və dəstəkləmək baxımından uğurlu olmamışdır. Bir sıra şahidlər,məsələn, İCTR tribunalında ifadə verməzdən öncə və ya sonra, qorxudulmuş və ya öldürülmüşdür. Şahidlərin tələblərə cavab verməyən hazırlıqda olduqları xəbər verilmiş və ya onlar məhkəmələrdə çox-saylı sərt soruşdurmalarla üzləşmiş və yenidən zərər-çəkmiş halına salınmış və aşağılanmışlar. Cinayət qurbanının ifadə vermək qərarı bəzən onun əri ilə ayrılmasına və ya yaşadığı icmadan qovulmasına gətirmişdir. Zorlama nəticəsində HİV/AİDS tutan qadınlar heç də həmişə tələblərə cavab verən müalicə ilə təmin edilməmişlər.

Bu problemlərin həll edilməsində müəyyən irəliləyiş Syerra Leone Xüsusi Məhkəməsi tərəfindən nümayiş etdirilmişdir, onlar təcrübəli qadın müstəntiqləri seksual zorakılıq cinayətlərini təhqiqat etməyə ayırmış, seksual zorakılığın qurbanlarının sərbəst şəkildə cinayət haqda danışmaları üçün gendər –həssas sorğu metodu qəbul etmiş və şahidlərin hazırlığını önə çəkmişdir. Buna baxmayaraq,cinayət qurbanlarının məhkəmə prosesləri üzündən öz icmaları daxilində rusvay olunmuş halda qalması riskləri qalır və onların tam olaraq öz başlarına gələnləri danışmaq imkanlarının olmadığı və ya ədalətin təmin olunmayacağı hissləri də qalır. “Gendər ədalətinin” sadəcə hüquqi hesabatlılıq prosesi vasitəsilə əldə edilməsinin mümkün olmadığı haqqında getdikcə artan düşüncə mövcuddur.

Həqiqəti söyləyən orqanlar, səhv hərəkətləri rəsmi olaraq qəbul edərək və pisləyərək, zorakılıq qurbanlarının öz başlarına gələnləri danışmaları üçün imkan yaratmağa və cəzasızlıqla üz-üzə gələrək pozuntuların baş verməməsinin qarşısını almağa çalışır. Onların nisbətən çevikliyi və qeyri-rəsmiliyi gendər məsələləri ilə məşğul olan cinayət hüquq proseslərindən daha həssas olmağa imkan verir.

Ən son, o cümlədən, Syerra Leone,Peru və Timor-Leste-də baş verən Həqiqət və Barış Komissiyaları (TRC), qadınların xüsusi təcrübələrini və hüquqi ehtiyaclarını həll etmək üçün TRC-in hansı addımlar atacağını nümayiş etdirir. Ruz Mario Rubinə görə, “qadınlara həsr olunmuş mövzulu dinləmələr onlara öz səslərini ifadə etmək üçün inanılmaz imkanlar verdi, həm də bu səslərin sərhədləri aşıb xalqa çatmasını təmin etdi.... və qadına qarşı seksual zorakılığı aydınlaşdırdı”. Həqiqət və Barış Komissiyalarının işində gendər problemi uçotunu aktivləşdirmək üçün istifadə olunan başqa mexanizmlərə, qadınlara həsr olunmuş xüsusi araşdırma qruplarının formalaşdırılması (Timor Leste-də) və komissiyanın yekun hesabatında bir sıra fəsillərin qadınlara qarşı zorakılığa həsr olunması və onların həyatına necə rəngarəng təsiri aiddir(Peru və Syerra Leone-də). Syerra Leone-də TRC qadın təşkilatlarını bu prosesə qoşmaq üçün onlarla əlaqə qurmuşdur. Nəticədə, qadın qrupları TRC-nin işləri ilə bağlı maarifləndirmə aparmaqla, dinləmələrdə ifadə verməklə,seksual zorakılığın qurbanlarına kömək etməklə, kompensasiya proqramlarına tövsiyələr verməklə və hökümətin bu tövsiyələri yerinə yetirməsinə təzyiq etməklə çox işlər görmüşlər.

Keçid ədliyyəsinin və gendərin çox saylı analizində ən çox çatışmayan cəhət kişilərin və oğlanların xüsusi tələblərinin başa düşülməməsidir. Syerra Leone-de, TRC-nin kompensasiya ilə bağlı hazırladığı tövsiyələrdə, seksual zorakılığa məruz qalmış kişilər qurbanlar kateqoriyasında prioritetləşdirilir. Lakin, bütün zorlama və qadın alveri ilə bağlı TRC-ə xəbər verilən hadisələr qadın və qızlara qarşı törədildiyindən, belə fikrə gəlmək mümkündür ki, seksual zorakılıqdan əziyyət çəkən kişi və oğlanların bu haqda xəbər vermələri üçün lazımi səylər göstərilmir.

Eyni zamanda, silahlı münaqişənin qadın və qızlara xüsusi təsirini nəzərə almaqla, seksual zorakılıqdan kənar məsələlərə də baxmaq lazımdır.Perulu qadın,öz ölkəsindəki TRC-nin seksual zorakılıq üzrə apardığı işləri alqışlamaqla, bu məsələyə verilən diqqətin qadınların üzləşdiyi başqa hadisələrin, məsələn, qaçqın və yerlərindən didərgin salınmış qadınların, ərinin insan hüquqlarının pozulması nəticəsində ailədə yeganə çörək pulu qazanan qadınların və qadın məhbusların diqqət mərkəzindən çıxdığı narahatlıqlarını ifadə edir. Bu cür fikirlər ən azı iki problemə işıq saçır: gendər ədalətinin zorakılığa məruz qalmış kişilərə də necə şamil olduğunu təmin etmək; və keçid ədalətinin mandat və mexanizmini iştirakçı tərzdə necə inkişaf etdirmək ki, onlar yerli icmaların ədalət və kompensasiya üzrə öz prioritetlərini həyata keçirsinlər.

Keçid ədalətindən başqa,münaqişədən çıxan ölkələr ədliyyə sektoru boyunca təcili islahata meylli olurlar.Əgər islahat olmuş ədalət sektoru əhalinin, o cümlədən, qadınların gözü qarşısında etibarlılıq və legitimliyə malik olursa,islahat prosesi cəmiyyətin bütün təbəqələrinin iştirakını əhatə etməli və onların ehtiyaclarını təmin etməli və qadın və kişilərə qarşı ayrı-seçkilik salan qanun və praktikalarin müəyyən edilməsini önə çıxarmalıdır.

Gendər əsaslı zorakılığı pisləyən qanunlar həm də çox zaman tələblərə cavab vermir və beynəlxalq insan hüquqları standardlarından geridə qalır. Münaqişə sonrası Liberiya və Ruandada qəbul edilmiş qanunvericilik aktlarının bir qismi zorlama ilə bağlı qanunlar idi. Hüquq orqanları işçilərinin təhsili və təyinatı prosesi də gözdən keçirilməli və məhkəmə və hüquq sənətində qadın və kişilərin bərabər iştirakını və etnik və dini rəngarəngliyini dəstəkləyən tədbirlər görülməlidir.

## 6. Nəticələr

Gendər, son 20 il ərzində ölkələrin inkişafında vacib bir amil kimi tanınmışdır, lakin onun TSİ-ı üzrə müzakirələrə və siyasi proqramlara salınması uzun vaxt almışdır. TSİ-a dəstək verən çox sayda donorlar münaqişə sonrası ölkələrdə gendər bərabərliyini dəstəkləyən geniş işlər görsə də, bu iki fəaliyyət sahəsi çox zaman bir-birindən asılı olmayaraq planlaşdırılmış və həyata keçirilmişdir.

Gendərin uğurlu şəkildə inteqrasiya olunmasına qarşı mövcud olan əsas problemlər müəyyən mənada çox sayda münaqişə sonrası ölkələrdə rastlanan, təhlükəsizlik sektoru islahatına əngəl olan problemlərdir: proqramların başa çatdırılmasına səbirsizlik göstərilməsi lazımi səviyyədə yerli sahiblənməyə gətirmir; başqa yerlərdə tətbiq edilən modellərin hər bir ölkədə təkrar edilə bilməsi fərziyyələri də öz yerini tapmır. Geniş dairəli maraqlı tərəflərlə məsləhətləşmələr və dialoq, heç də geniş maliyyə resursları tələb etmir, lakin onlar vaxt alır və çox sayda fərdlərin

şəxsi öhdəliklərini tələb edir. Gendər məsələləri, çox zaman böyük yerli mədəniyyət həssaslığı mənası daşıyır,çünki kənar subyektlər nə qədər təkan versə də və dəstək versə də, təşəbbüslərdə yerli maraqlı tərəflər aparıcı olmalıdır.

Gendəri münaqişə- sonrası TSİ-a inteqrasiya edən ən vacib resurs və imkanlar bilavasitə bu yerli maraqlı tərəflərdir. Münaqişədən çıxan çox sayda ölkələrdə,parlament üzvləri və təhlükəsizlik xidmətlərində xidmət edən qadınlar, mülki cəmiyyət təşkilatları və başqaları gendər-cavablayıcı TSİ –nın varlığı üçün səslərini ucaldırlar.TSİ-ı üzrə siyasətlər və yanaşmalar beynəlxalq təşkilatlar və donorlar tərəfindən artan dərəcədə kodlaşdırıldığından, gendər inteqrasiyasının təmin edilməsi addımları standard iş,monitorinq və hesabat prosedurlarına və təlimlərinə salınmalıdır.

Gendər məsələlərini özünə inteqrasiya etməklə TSİ-ı daha çox qazanar. Həm qadın və həm də kişilərin tam iştirakından istifadə etməklə, o yerli tələblərə daha da cavablı ola bilər,daha da legitim və əhali arasında birgə mövcud olan bir sıra təhlükəsizlik və əgalət prioritetlərini daha yaxşı həll etmək iqtidarında ola bilər. Münaqişə sonrası ölkələrdə, münaqışədən öncə mövcud olan güc strukturları tərəfindən marjinallaşdırılmış qadın qrupları ilə və başqa qruplar ilə aparılan iş ictimai inam yarada bilər, təhlükəsizlik sektoru islahatını çox sayda maraqlı tərəflərin iştirakı ilə möhkəmlətməyə kömək edər və cəmiyyətin bütün hissələri boyunca təhlükəsizlik və ədaləti yaxşılaşdırar. Əksinə,gendəri qulaqardına vuran TSİ-ı yanaşmaları, cəmiyyətin bütün təbəqələrinə effektiv və hesabatlı təhlükəsizlik təmin etmək məqsədlərini uğursuzluğa məruz qoyar.

**Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi(DCAF)**

Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi(DCAF-The Geneva Centre for the Democratic Control of Armed Forces) Təhlükəsizlik Sektoru İslahatı və Təhlükəsizlik Sektoru İdarəçiliyi üzrə dünyanın aparıcı təsisatlarından biridir. DCAF ölkə-daxilində dəstək məsləhətləri verir və praktiki kömək proqramları təmin edir,beynəlxalq və ölkə səviyyəsində uyğun demokratik normalar hazırlayır və təşviq edir,yaxşı praktikaları təbliğ edir və təhlükəsizlik sektorunda effektiv demokratik idarəçiliyi təmin etmək üçün siyasi tövsiyələr verir.

Baxın: **www.dcaf.ch**

Geneva Centre for the Democratic Control of Armed Forces (DCAF):
rue de Chantepoulet 11, PO Box 1360, CH-1211 Geneva 1, Switzerland
Tel: + 41 22 741 77 00; fax: + 41 22 741 77 05; e-mail: info@dcaf.ch